

Milli azadlıqdan şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 may 2025-ci il, cümə axşamı
№ 082 (6909)
Qiyməti 60 qəpik

# Yeni milli brend: 30 yaşlı “InterFood Azerbaijan” və “Caspian Agro” sərgiləri



Bax səh. 2



# Müharibə əlilləri və şəhid ailələrinə növbəti dövlət qayğısı

Bax səh. 3

# “Bakıdan Belemə”...

## Azərbaycanın iqlim təşəbbüskarlığı COP30-un yol xəritəsinə çevrilir

Bax səh. 4

# “Sülh göyərçini”ndən atəş əmri...

Bax səh. 4



# Azərbaycan real addımlar gözləyir

Bax səh. 3

## Korsikanın müstəqilliyi uğrunda...

Azərbaycan müstəmləkəçiliyə və neokolonializmə qarşı mübarizə aparan xalqları dəstəkləyir. Dövlətimiz bu mövqeyini bütün beynəlxalq platformalarda bəyan edib. Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının 2023-cü il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb. Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu ölkəmizdə və xaricdə, o cümlədən BMT müstəvisində həmin xalqların...

Bax səh. 5

## Təhsil proqramları necə hazırlanır?

Cəmiyyətin bütün sahələr üzrə inkişafını təmin etmək üçün elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarının hazırlanması olduqca vacibdir. Çünki dövlətin inkişafını şərtləndirən ən mühüm amillərdən biri də onun təhsil sektorunu inkişaf etdirməkdir. Müstəqil Azərbaycan dövlətini bugünkü inkişaf səviyyəsinə çatdırmaq üçün bir çox sahələr üzrə mühüm işlər görülür. Onlardan ən əsası təhsil sistemində edilən yeniliklərdir. Təhsilin keyfiyyətinin...

Bax səh. 5

## Avropa Bankından bədbin proqnoz

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) “Regional iqtisadi perspektivlər” adlı may hesabatında ABŞ-ın ticarət siyasətində baş verən dəyişikliklərin, o cümlədən gözlənilən sərt tarif tədbirlərinin qlobal iqtisadiyyata təsirləri və itkiləri barədə proqnozlar yer alıb. Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp mart ayında xarici ticarət tərəfdaşlarına qarşı idxal rüsumlarının tətbiqi barədə fərman verib. Sənədin hüquqi qüvvəsi müəyyən müddətə təxirə salınsa da, sərt rüsum rejiminin tətbiqindən imtina...

Bax səh. 5

## Yaxın Şərqdə yeni mərhələ

ABŞ Prezidenti Donald Trampın “Körfəz turu” mühüm məqamları ilə seçilir. Xüsusilə, mayın 13-də Suriya ilə bağlı bütün sanksiyaların ləğv olunduğunun elan edilməsi həm rəsmi Dəməşq üçün, həm də regionda formalaşan yeni nizam üçün mühüm perspektivlər deməkdir. Qeyd edək ki, bu qərar, Bəşər Əsədin 2024-cü ilin dekabrında devrilməsindən sonra hakimiyyətə gələn keçid hökuməti ilə münasibətləri normallaşdırmaq məqsədi daşıyır. Tramp öz nitqində yeni rəhbərliyin ölkədə sabitlik və...

Bax səh. 6



## “Qara-qırmızı” koalisiya Almaniyanı “işığa” çıxaracaqmı?

Bax səh. 7



## “Dost Aktı” dost jestidirmi?

Bax səh. 6

# Yeni milli brend: 30 yaşlı “InterFood Azerbaijan” və “Caspian Agro” sərgiləri

## Xəzər regionunun ən böyük sərgisi əməkdaşlıq əlaqələrinin genişlənməsində mühüm rol oynayır

Yüksək inkişaf dinamikasına malik olan Azərbaycan özünün təcrübəsini, ayrı-ayrı sahələrdə qazandığı uğurları və ölkəmizin müsbət reallıqlarını müxtəlif platformalar vasitəsilə beynəlxalq istimaiyyətə təqdim edir. Belə təqdimatlar respublikamızın dünyada nüfuzunun daha da artmasında və əməkdaşlıq əlaqələrinin genişlənməsində mühüm rol oynayır.

Beynəlxalq Qida Sənayesi - “InterFood Azerbaijan” və Beynəlxalq Kənd Təsərrüfatı - “Caspian Agro” sərgiləri də artıq Cənubi Qafqazda, Avropa İttifaqı (Aİ) məkanında, körfəz ölkələrində və daha geniş coğrafiyada tanınan və maraqla gözlənilən platformaya çevrilib. Mayın 13-də Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzində XXX Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi - “InterFood Azerbaijan” və XVIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - “Caspian Agro” sərgiləri ilə tanış olub. Artan maraq, iştirakçı və ziyarətçilərin istəkləri nəzərə alınaraq, bu il sərgilər 4 gün davam edəcək.

Sərgilər Azərbaycanın kənd təsərrüfatı və qida sənayesinin inkişafına dəstək verərək, ölkənin ixrac potensialının artırılmasına, xarici investisiyaların cəlb edilməsinə imkan yaradır, eyni zamanda, qida təhlükəsizliyi və innovativ həllərin tətbiqi üçün əlverişli platforma rolunu oynayır. Sərgilərin miqyasını və sərgi çərçivəsində keçirilən tədbirlərin zəngin proqramını nəzərə alaraq, “Caspian Agro” və “InterFood Azerbaijan” 2026-cı ildən etibarən yeni “AgriWeek” brendi altında keçiriləcək.







### Yeni strateji mərhələdə Azərbaycanın əsas hədəflərindən biri - qeyri-neft ixracının artırılması

Azərbaycanın ixracında ənənəvi olaraq enerji daşıyıcıları üstünlük təşkil edir. Xüsusilə son illərdə respublikamız qlobal enerji bazarlarına neftqaz məhsullarının ixracını artırmaqla ayrı-ayrı ölkələrin, bütövlükdə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır.

Yeni strateji mərhələdə qarşıya qoyulan hədəf isə neftdən kənar sahələr, o cümlədən də aqrar sektor üzrə istehsal həcmlərini artırmaqdır. Burada iki amil əsas götürülür:

-Dünyadakı reallıqlar və mənfi xarici risk ehtimalları nəzərə alınmaqla ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında daxili istehsalın payının yüksəldilməsi,

-İxracın şaxələndirilməsi, Azərbaycan üçün ənənəvi olan kənd təsərrüfatı məhsullarının yeni bazarlara çıxarılması. Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmanla təsdiqlənən milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində adambaşına düşən qeyri-neft ixracının artırılması hədəf indikatorlarından biri kimi müəyyənləşdirilib.

Eyni zamanda, qarşıya qoyulan yüksək hədəflərə çatmaqdan ötrü müxtəlif təşviq alətləri işə salınıb, özəl şirkətlərin qarşısında geniş imkanlar yaradan, onlara təminatlar və üstünlüklər verən möhkəm hüquqi baza yaradılıb. Ümumiyyətlə, ölkənin ixrac imkanlarının genişləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərin spektri kifayət qədər genişdir. “Yaşıl dəhliz”, “Tax free” sistemlərinin tətbiqi, bəzi məhsulların idxal rüsumlarının artırılması, idxal edilən xammallara isə rüsumların azaldılması da mühüm islahat tədbirlərindəndir və ixracyönümlü məhsul istehsalının həcminin artmasına müsbət təsir göstərir. Xarici ölkələrdə yaradılan logistik mərkəzlər, ticarət evləri də ixracın təşviqində müsbət rol oynayır. Artıq ayrı-ayrı ölkələrdə müvafiq strukturlar uğurla fəaliyyət göstərir. Azərbaycanın ilk ticarət nümayəndəliyi Rusiya Federasiyasında açılıb. Hazırda respublikamıza aid ticarət evləri Çində və bir sıra Avropa ölkələrində uğurla fəaliyyət göstərir. Həmçinin “Made in Azerbaijan” brendi yaradılıb, ixracatçılara dəstək tədbirləri müəyyənləşdirilib. “Made in Azerbaijan” brendinin xarici ölkələrdə təbliği məqsədilə ixrac missiyaları təşkil edilir, beynəlxalq sərgilərdə yerli məhsullarımız vahid ölkə stendində nümayiş olunur, ixracatçılara məsləhət xidməti göstərilir, ixtisaslaşmış assosiasiyaların yaradılması dəstəklənir.



### Milli brendə çevrilən sərgilər

Sərgilər Kənd Təsərrüfatı Nazirliyinin təşkilati dəstəyi ilə keçirilir. Eyni zamanda, sərgilərə Qida Təhlükəsizliyi Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi, Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Qida və İçki Sənayeçiləri Assosiasiyası, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası fəal şəkildə dəstək verir.

Milli brendə çevrilmiş “InterFood Azerbaijan” və “Caspian Agro” sərgiləri kənd təsərrüfatı və qida sənayesi sahələrində Xəzər regionunun ən böyük sərgiləridir. Bakı Ekspo Mərkəzinin bütün pavilyonlarını, həmçinin açıq sahəsini əhatə edən və mayın 16-da başa çatacaq “InterFood Azerbaijan” və “Caspian Agro” sərgilərində 31 ölkədən 450 şirkət iştirak edir. Budəfəki sərgi “InterFood Azerbaijan” üçün yubiley sərgisidir - artıq otuzuncu dəfədir ki, dünyanın müxtəlif ölkələrindən çoxsaylı şirkətlərin təmsilçiləri Bakıda bir araya gəlirlər.

Ötən illər ərzində 50-dək ölkədən 3 mindən çox şirkət və 150 mindən artıq ziyarətçini qəbul edən sərgi səmərəli biznes platforması statusunu qazanıb. Burada təqdim olunan yeni texnologiyalar və innovativ həllər qida sənayesi sahəsinin inkişafına və biznes əlaqələrinin genişləndirilməsinə əlverişli imkanlar yaradır. Eyni zamanda, sərgi ərzaq təhlükəsizliyinin əsas aspektlərini əhatə edərək, onun gücləndirilməsinə də töhfə verir.

### Azərbaycan məhsullarına artan maraq




Beynəlxaq sərgilər ölkələr, şirkətlər arasında körpülər yaradılması baxımından müstəsna rola malikdir. Azərbaycan şirkətləri də dövlət dəstəyindən bəhrələnməklə mütəmadi qaydada xarici ölkələrdə təşkil olunan beynəlxalq sərgilərə qatılır. 2024-cü ildə AZPROMO-nun dəstəyi ilə ixracatçılarımız 47-ci Beynəlxalq Bağdad Sərgisi, Almaniyada “Greenweek” və “Prowein”, Rusiyada “Prodexpo” və “Russia Halal Expo 2024”, Birləşmiş Ərəb Əmirliklərində “Gulfood”, Yaponiyada FOODEX, eləcə də İtaliyanın Rimini şəhərində “Macfrut”, Səudiyyə Ərəbistanın Ər-Riyad şəhərində “Saudi Food Show 2024” və Şanxayda 7-ci Çin Beynəlxalq İdxal Sərgisi kimi ümumilikdə 10 beynəlxalq sərgidə iştirak ediblər. Qurum tərəfindən 2025-ci ildə isə “WorldFood Moscow 2025”, Köln şəhərində “Anuga” və Şanxay şəhərində 8-ci Çin Beynəlxalq İdxal sərgilərində vahid ölkə stendi ilə Azərbaycan sahibkarlarının iştirakının təmin olunması planlaşdırılır. Bu sərgilərdə həm qabaqcıl beynəlxalq təcrübə öyrənilir, həm də partnyorlarla daha sıx əlaqələr qurularaq onlarla yeni müqavilələr imzalanır.

Bakıda təşkil olunan sərgilərdə də iştirakçılar “Made in Azerbaijan” brendinə böyük maraq göstərirlər. Kənd Təsərrüfatı Nazirliyi bu il də sərgilərdə stendlə iştirak edir. 2025-ci ildə nazirliyin iştirakının əsas mövzusu süni intellektin kənd təsərrüfatında tətbiqi ilə bağlıdır. Belə ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq süni intellektin kənd təsərrüfatında tətbiqi prioritet kimi müəyyən olunub. Sərgilər çərçivəsində nazirlik tərəfindən süni intellektin tətbiqi ilə bağlı layihələr iştirakçılara təqdim edilir. Hazırda gündəmdə olan əsas məsələlərdən biri Azərbaycan universitetlərində süni intellekt istiqamətində təhsil alan tələbələr və bazarda olan böyük aqroparklar arasında sinerjinin yaradılmasıdır. Həmçinin budəfəki “InterFood” sərgisinə AZPROMO-nun “Made in Azerbaijan” stendində təbii bal, meyvə-tərəvəz, qurudulmuş meyvələr, spirtli içkilər, şərab və süd məhsullarının istehsalı sahələrində fəaliyyət göstərən 8 şirkət təmsil olunur.

“Caspian Agro” kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemi, qablaşdırma, kənd təsərrüfatında innovasiya texnologiyaları, heyvandarlıq və quşçuluq, baytarlıq, bitkiçilik, meyvə və tərəvəzlərin yetişdirilməsi, gülçülük, tullantıların emalı, logistika, elektron kənd təsərrüfatı kimi sahələri əhatə edir. Buraya kənd təsərrüfatı sənayesinin aparıcı iştirakçıları, yerli və xarici ekspertləri, o cümlədən idxalçılar, ixracatçılar, məhsulların distribütorları, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər də daxil olmaqla minlərlə peşəkar toplaşır.

Ekspozisiyada “Smart Agro” istiqaməti üzrə süni intellekt, ağıllı kənd, startaplar, İT xidmətləri, robototexnika, pilotsuz uçuş aparatları və “green agro” bölmələri də yer alır.

Yerli biznes strukturlarının sərgilərə məmnuniyyətlə qatılmaları da böyük əhəmiyyət daşıyır. Uzun illərdir ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi sərgiləri fəal şəkildə dəstəkləyir, kiçik və orta sahibkarların tədbirlərdə iştirakı üçün stend təşkil edir. Şirkətlər bazarın yenilikləri ilə tanış olur, sahənin aparıcı liderləri ilə əlaqələr qururaq, inkişaf edirlər.

***Mübariz ABDULLAYEV***

### Sərgilərin coğrafiyası dünyanın bir çox ölkələrini əhatə edir

Bakının ənənəvi olaraq ev sahibliyi etdiyi sərgilərə beynəlxalq səviyyədə maraq getdikcə artır. Sərgilərin coğrafiyası dünyanın bir çox yerini əhatə etməklə, olduqca genişdir. Burada ABŞ, Çin, Qazaxıstan, Özbəkistan, Rusiya, Türkiyə və digər ölkələrin aparıcı kənd təsərrüfatı istehsalçıları məhsullarını nümayiş etdirirlər. Qeyd edək ki, Almaniya, Belarus, Cənubi Koreya, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, eləcə də ilk dəfə olaraq Misir sərgilərdə milli qruplar şəklində təmsil olunurlar.

Dövlətimizin başçısı ayrı-ayrı ölkələrin milli stendləri ilə tanış olub. Tədbirdə İtaliya Respublikasının Milli Qrupu”nda ümumilikdə 7 şirkət təmsil olunur. Bu ölkə 10 ildən çoxdur ki, sərgilərə qatılır.

Almaniya da sərgidə mütəmadi qaydada iştirak edir. “Almaniya Milli Qrupu”nda kənd təsərrüfatı məhsullarını təqdim edən 8 şirkət təmsil olunur. Vurğulamaq yerinə düşər ki, Almaniya 5 ildir ki, sərgilərdə iştirak edir.

Cənubi Koreyanın stendində 3 şirkət təmsil olunur. Onlar kənd təsərrüfatı məhsulları sahəsində tanınmış şirkətlərdir. Cənubi Koreya artıq ikinci ildir ki, sərgilərə qatılır.

“Gürcüstan Milli Qrupu”nda 8 şirkət var. Qonşu və dost ölkə indiyədək 10 dəfə sərgilərdə təmsil olunub.

Belarus da sərgilərə böyük maraq göstərən ölkələrdəndir. Milli stenddə qida məhsulları istehsal edən 15 şirkət təmsil olunur. 10 ildən çoxdur bu ölkə sərgilərdə iştirak edir.

## İmtiyazlı kateqoriyaya aid bütün şəxslər 2030-cu ilə qədər mənzillə təmin olunacaqlar

# Müharibə əlilləri və şəhid ailələrinə növbəti dövlət qayğısı

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2021-ci il 25 yanvar tarixli Sərəncamına dəyişiklik edib. Sərəncama edilmiş dəyişiklərə əsasən, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması tədbirləri 2030-cu ilə qədər davam etdiriləcək.

Sənəddə nəzərdə tutulmuş tədbirlərə əsasən, qeyd edilən sosial kateqoriyaların ailə üzvlərinə pulsuz evlərin və mənzillərin verilməsi qarşıdakı illərdə diqqətdə saxlanılacaq. Həmin müddətdə bütün imtiyazlı şəxslərin dövlət hesabına mənzil təminatı öz həllini tapacaq. Bu sosial siyasət tədbirləri çərçivəsində, 2014-cü il yanvarın 1-dən 2023-cü il yanvarın 1-dək yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi , o cümlədən hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi davam etdiriləcək.

Qanunvericiliyə əsasən, qeyd edilənlərlə yanaşı, 16 avqust 2021-ci il tarixə kimi uçota alınmış gözdən əlilliyi olan şəxslər və uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunları üçün də pulsuz mənzillər nəzərdə tutulub. 2020-ci ildə aparılan hərbi əməliyyatlar zamanı Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri, "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslər, eləcə də ölümündən sonra həmin ad verilmiş şəxslərin ailə üzvləri də imtiyazlı ailələr hesab olunurlar.

## Şəhid ailələri və müharibə əlillərinə 16 min mənzil və fərdi ev təqdim edilib



Müharibə əlilləri və şəhid ailələrinə davamlı sosial qayğı dövlətin həyata keçirdiyi sosial siyasətin əsas istiqamətlərindən biridir. Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil və məişət şəraitinin yaxşılaşdırılması üçün fərdi və çoxmənzilli yaşayış binalarının tikilib istifadəyə verilməsi, eləcə də bu kateqoriyadan olan insanların avtomobillərlə təmin olunması bunun əyani təsdiqidir. 2021-2025-ci illər ərzində şəhid ailələri, müharibə əlilləri və digər həssas qrupa aid olan insanların mənzillə tam təminatının həyata keçirilməsi üçün Dövlət Proqramı çərçivəsində indiyə qədər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 6,8 min, ümumən ötən dövrdə 16 min mənzil və fərdi ev təqdim edilib. Bu sahə hər il xüsusi olaraq dövlət büdcəsinin sosial xərclər bölməsində diqqətdə saxlanılır və imtiyazlı şəxslərin mənzil təminatı üçün zəruri həcmlərdə maliyyə təminatı ayrılır. 2025-ci ildə isə həmin məqsədlər üçün ayrılmış maliyyə vəsaitinə əsasən, daha 1000 imtiyazlı şəxsə mənzillərin verilməsi nəzərdə tutulub.

## Təqaüd və müavinətlər davamlı olaraq artırılır

Dövlətin həmin sosial kateqoriyaya olan sosial qayğısının təzahürü olaraq "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 500 manatdan 600 manata qaldırılıb. Həmçinin, "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 600 manat müəyyənləşdirilib. Eləcə də, müharibə əlilərinin və Çernobıl AES-də qəzada əlilliyi müəyyən edilmiş şəxslərin təqaüd və müavinətləri artırılıb. Hazırda beşinci sosial paket çərçivəsində həmin sosial qrupa aid bütün şəxslərin təqaüd və müavinətlərinin yenidən artırılması ilə bağlı təkliflər yekunlaşıb və yaxın günlərdə artımlar təmin olunacaq. Bütün bunlar onu təsdiqləyir ki, şəhid ailələri, qazilər və əhalinin digər həssas qruplarına aid insanlara diqqət və qayğının göstərilməsi, onların rifah halının yaxşılaşdırılması dövlətimizin yürütdüyü siyasətin prioritet istiqamətlərindən biridir.

***E.CƏFƏRLİ***

# Azərbaycan real addımlar gözləyir

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində davam edən proses nəticəyə yaxınlaşır - artıq bir neçə aydır ki, sənədin detalları ilə bağlı tam razılıq əldə edilib. Hətta bir müddət öncə fikir ayrılığı yaşanan maddələr də 3 aya yaxındır ki, həllini tapıb. İllərdir özünün qeyri-konstruktiv mövqeyi ilə regionda sülhün və təhlükəsizliyin təmin olunmasına maneçilik törədən, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən Ermənistan tərəfi də artıq müəyyən sülh anonsları səsləndirir. Bu, rəsmi İrəvanın artıq Azərbaycanın regionda yaratdığı yeni siyasi-iqtisadi reallıqları qəbul etməsi kimi dəyərləndirilsə də, Bakı qarşı tərəfdən real addımlar gözləyir. Başqa sözlə, sülhün həm əbədi, həm də dayanıqlı olması üçün Ermənistan üzərinə düşən məsuliyyəti yerinə yetirməlidir.

## Sülh sazişi mətni yekunlaşıb

Sülhün bərqərar olması üçün zəmini formalaşdıracaq addımlardan biri Ermənistanın manipulyasiyalardan əl çəkərək özünün əsassız iddialarını unutması, Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, qondarma ərazi iddialarından rəsmən əl çəkdiyini ortaya qoymasıdır - başqa sözlə, Ermənistan konstitusiyasında dəyişiklik etməlidir. Digər məqam isə, vaxtilə "münaqişə"nin tənzimlənməsi üçün yaradılmış və artıq heç bir işə yaramayan ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı məsələnin İrəvan tərəfindən dəstəklənməsidir. Artıq "Qarabağ münaqişəsi" adlı bir mövhum mövcud olmadığı üçün, belə bir "vasitəçi mexanizmə" də ehtiyac qalmır. Azərbaycan ilə Ermənistan arasındakı münasibətlər isə qlobal gündəliyi maraqlandıran bir məsələ deyil, ikitərəfli kontekstdə həll olunan bir məsələdir - nəticə etibarı ilə, ATƏT-in Minsk qrupunun mövcudluğuna real olaraq ehtiyac duyulmur.

Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da jurnalistlərə müsahibəsində deyib ki, bir neçə istiqamət kontekstində martda Azərbaycanla Ermənistan arasında sülh sazişi mətni üzrə danışıqlar yekunlaşıb: "Azərbaycanın Ermənistan tərəfindən bəlli bir legitim gözləntiləri var. Həmin gözləntilər Azərbaycanın ərazi bütövlüyünə olan iddiaların Ermənistan Konstitusiyasından çıxarılması, o cümlədən uzun illər tamamilə iflic bir vəziyyətdə olan və münaqişənin tamamlanması ilə məntiqi bir ehtiyac duyulmayan Minsk qrupunun ləğv edilməsidir. Bu istiqamətdə prosesləri izləyirik, təmaslar var. Ancaq bizim üçün önəmli addımlar əhəmiyyət kəsb edir".

## Konstitusiya dəyişməlidir!



Qeyd edildiyi kimi, Azərbaycanın məsələyə münasibəti birmənalıdır. Dayanıqlı sülh yalnız və yalnız Ermənistanın əsas sənədində dəyişiklik edildikdən sonra imzalanacaq. Artıq bir müddətdir ki, Ermənistanda Konstitusiya dəyişikliyi ilə bağlı məsələnin müzakirə olunması ilə bağlı da xəbərlər yayılır. Ermənistanın ayrı-ayrı rəsmi şəxsləri bu dəyişikliyin həm zəruri, həm də vacib olduğunu etiraf ediblər. Amma real addımlar nəzərə çarpmır. Rəsmi İrəvan anlayır ki, məsələnin bir həlli var - konstitusiyada yer alan bu əsassız iddiaların aradan qaldırılması. Azərbaycan dövləti hər zaman bəyan edib ki, Ermənistan konstitusiyasında Ermənistanın müstəqillik aktına istinad var və bu, konstitusiyanın tərkib hissəsidir. Sülh üçün bu iddia aradan qaldırılmalıdır. Ermənistan öz konstitusiyasından bu istinadı aradan qaldırmadıqca gələcək illərdə yenidən revanşizm arzusuna düşə bilər. Beləliklə də, vəziyyət yenidən gərginləşə bilər. Bunun baş verməməsi üçün Ermənistan konstitusiyasındakı Azərbaycan torpaqlarına rəsmi iddiaların hər biri aradan qaldırılmalıdır.

Ermənistan tərəfi isə yeni konstitusiya layihəsi üzərində iş aparıldığını bildirir. Ötən həftə Ermənistanın ədliyyə naziri Srbuhi Qaloyan parlamentdə keçirdiyi brifinqdə bildirmişdi ki, Ermənistan yeni Konstitusiya layihəsi üzərində işləyir və bu layihə 10 ay ərzində hazır olacaq. Qaloyan konstitusiyanın yeni mətnində müstəqillik bəyannaməsinin xaric edilib-edilməməsi məsələsinin hələ müzakirə olunduğunu söyləyib. "Biz müxtəlif variantları müzakirə edirik, amma mətn hələ də hazırlanır. Konsepsiya eynidir, bu konsepsiya çərçivəsində müxtəlif normalar üzrə müzakirələr aparılır," - deyə nazir əlavə edib. Nazir həmçinin bu məsələnin referendumda müzakirəyə çıxarılma vaxtı ilə bağlı hələlik dəqiq bir məlumatın olmadığını bildirib.

## ATƏT-in Minsk qrupuna ehtiyac yoxdur

Paralel olaraq eyni məsələni ATƏT-in Minsk qrupu ilə bağlı demək olar. Azərbaycan haqlı olaraq bildirir ki, Qarabağ münaqişəsinin bitməsi Minsk qrupunun da fəaliyyətini yekunlaşdırır. ATƏT-in Minsk qrupu münaqişənin tənzimlənməsində vasitəçi mexanizm kimi formalaşdırılmışdı. Artıq "Qarabağ münaqişəsi" adlı bir mövhum mövcud olmadığı üçün, belə bir "vasitəçi mexanizmə" də ehtiyac qalmır. Azərbaycan ilə Ermənistan arasındakı münasibətlər qlobal gündəliyi maraqlandıran bir məsələ deyil, ikitərəfli kontekstdə həll olunan bir məsələdir - nəticə etibarı ilə, ATƏT-in Minsk qrupunun mövcudluğuna real olaraq ehtiyac duyulmur. Bu il aprelin 25-də Prezident İlham Əliyev ATƏT-in Baş katibi Feridun Sinirlioğlunu qəbul edərkən keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həllində tam iflasa uğramış ATƏT-in Minsk qrupunun və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtının artıq çoxdan çatdığını demişdi və Ermənistan tərəfindən də bu xüsusda addımların atılmalı olduğunu bir daha qeyd etmişdi.

Beləliklə, Ermənistan bu kimi addımları ləngitməklə ümumi prosesi gecikdirir. Konstitusiya ilə bağlı məsələləri tezləşdirmək, ATƏT-in Minsk qrupunun ləğvi məsələsinin reallaşması üçün atılası zəruri addımları həyata keçirmək İrəvanın özü üçün müsbət bir hal yaradacaq - çünki Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması Cənubi Qafqazın həyatında yeni - sabit və inkişafa yönəlik dövrün başlama perspektivini formalaşdırır. İmzalanacaq sülh Cənubi Qafqazın yeni dönəmdə stabil və sabit məkan kimi inkişafına yol açacaq, qlobal layihələrdəki iştirakımızı rəsmiləşdirəcək. Bir sözlə, Azərbaycanın təşəbbüskarı və müəllifi olduğu sülh layihəsinin prioritet istiqamətləri həm də Cənubi Qafqaz üçün, daha çox isə Ermənistan üçün inkişaf tempi perspektivi vəd edir.

## İkitərəfli təmaslar davam edir...

Qeyd olunmalıdır ki, sülh prosesinin ən mühüm detallarından biri kimi önə çıxan delimitasiya və demarkasiya işləri davam etdirilir. 2023-cü ilin payızından etibarən Ermənistan ilə Azərbaycan arasında müvafiq delimitasiya komissiyaları çərçivəsində baş tutan görüşlər, aparılan müzakirələr və əldə edilən razılaşmalar bir faktı önə çıxarıb - üçüncü tərəfin iştirakı olmadan razılıq əldə etmək imkanları daha böyükdür. Davam edən prosesdə iki ölkənin müvafiq dövlət strukturları arasında birgə açıqlama yayılıb, aprel ayında dövlət sərhəddinin müəyyən hissəsinin delimitasiya və demarkasiyası ilə bağlı razılaşma əldə olunan və icra edilib, nəhayət komissiyaların birgə fəaliyyəti haqqında" Əsasnamə qəbul edilib. Münasibətlərin normallaşması prosesində mühüm bir ştrix sayılan sərhədlərin delimitasiyası və demarkasiyasında əldə olunan razılıqlar isə sülh üçün zəmin formalaşdırır. XİN rəhbəri Ceyhun Bayramov açıqlamasında bu məsələyə də toxunub. Bildirib ki, delimitasiya prosesi ilə bağlı bu il artıq bir neçə təmas olub: "Bildiyimiz kimi delimitasiya üzrə iki ölkənin baş nazirlərinin müavinlərinin rəhbərliyi ilə komissiyalar mövcuddur. İşlər davam edir və düşünürəm ki, orada təmaslar olacaq. Digər istiqamət Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat-kommunikasiya xətlərinin açılmasıdır. Burada da Azərbaycanın mövqeyi bəllidir. Biz Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsini gözləyirik".

***P.İSMAYILOV***

# "Bakıdan Belemə"...

## Azərbaycanın iqlim təşəbbüskarlığı COP30-un yol xəritəsinə çevrilir

Azərbaycanın qlobal iqlim hərəkatındakı nümunəvi fəaliyyəti, ötən il uğurla başa çatdırdığı COP29 sammiti BMT və digər beynəlxalq ekoloji institutlar tərəfindən peşəkar təcrübə, sanballı model kimi öyrənilməkdədir. 2025-ci ildə Braziliyada keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti sessiyasında (COP30) Azərbaycanın iqlim proqramına istinad ediləcək. Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Bakıda keçirilən 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı və 30-cu Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi sərgiləri çərçivəsində keçirilən "Təbiət naminə ölkələri səfərbər edən kənd təsərrüfatı" adlı konfransda bildirib ki, "Bakıdan Belemə" yol xəritəsi ölkəmizə olan növbəti etimadın nümunəsidir.

Beynəlxalq iqlim ailəsinin ötən il Bakıda əldə etdiyi razılaşmaya əsasən, 2035-ci ilə qədər illik iqlim maliyyəsinin 1,3 trilyon dollara çatdırılması hədəflənir. Azərbaycanın təşəbbüsü ilə müəyyənləşmiş maliyyə həmrəyliyi konsepsiyasına əsasən, bütün ölkələr birgə çalışaraq təkcə dövlət sektorunun deyil, həm də özəl sektorun maliyyəsi hesabına 300 milyard dollarlıq iqlim maliyyə hədəfini 1,3 trilyon dollara çatdırmağa çalışacaq. "Bakıdan Belemə" adlı 1,3 trilyon dollarlıq yol xəritəsinin hazırlanması da həmin qlobal hədəfə əsaslanır.

### Bakıda müəyyənləşən iqlim maliyyəsi çərçivəsi

Qeyd edək ki, Bakı COP-u kimi tarixə düşən COP29 çərçivəsində iştirakçı ölkələrin müzakirə etdiyi əsas mövzulardan biri iqlim maliyyələşdirilməsi ilə bağlı yeni həll yollarının tapılması, dayanıqlı və işlək maliyyə arxitekturasının formalaşdırılması olub. İqlim koalisiyasının üzvləri arasında fikir ayrılıqları olsa da, Azərbaycanın gərgin səyləri və qəti təşəbbüskarlığı sayəsində yeni maliyyə hədəfinin müəyyən olunması üçün dayanıqlı maliyyə portfelinin yaradılması ətrafında fəal danışıqlar uğurla başa çatdırılıb. Ən mühüm nailiyyət isə iqlim maliyyəsindən boyun qaçıran kollektiv Qərbin bu prosesə cəlb edilməsidir. Beləliklə, COP29 sammitində dünya ölkələrinin yeni maliyyə iqlimi ailəsi və yeni coğrafiya maliyyə arxitekturası formalaşdırılıb. Sammitdə Avropanın bir çox ölkəsi də daxil olmaqla qitə ölkələrinin karbonsuzlaşdırma, 2030-cu ilə qədər qlobal bərpaolunan enerji potensialının üç dəfə artırılması, təbiətin qorunması və artırılması, karbon tullantılarının qorunması və emissiyaların üçdə birini təşkil edən qida sistemlərinin transformasiyası istiqamətində hərəkətləri sürətləndirmək barədə razılığa gəlinməsi və yekun bəyannamələrin imzalanması məsuliyyətli iqlim alyansının formalaşdığını təsdiqlədi.




### Ambisiyalı maliyyə portfeli yaradılır

Ən mühüm nailiyyət isə COP29-da İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun (İMFF) yaradılması barədədə yekdil razılığın əldə edilməsidir. Bununla da inkişaf etməkdə olan ölkələrdə iqlim maliyyələşməsinin mühüm sütunu olan "İqlim Dəyişmələri üzrə İtki və Zərər Fondu"na vəsait ayrılması təmin olundu. İMFF bərpaolunan enerji sahəsində fəaliyyət göstərən kiçik və orta istehsalçılar üçün gələcək məhsulların satın alınması üzrə sazişə zəmanətlə yanaşı, "yaşıl" sənaye layihələri üçün ilkin kapital itkisinin kompensasiyasını da təmin edəcək. Həmçinin, inkişaf etməkdə olan ölkələrin tələblərinə cavab verəcək ədalətli və ambisiyalı Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) qəbul edilib və bu sənəd çoxtərəfli inkişaf banklarının resurs bazalarından istifadə etməsinə imkan yaradacaq. Nəticədə bu, iqlim hədəflərinə çatmaqda dayanıqlı maliyyə mexanizmlərinin formalaşmasında mühüm rol oynayacaq.

### Dünya Bankının töhfəsi

Maliyyələşmə siyasətinin davamı kimi donorlardan biri olan Dünya Bankı maliyyə töhfəsini 170 milyarda çatdırmağı öhdəsinə götürüb. Habelə COP29 çərçivəsində keçirilən İqlim məsələləri üzrə biznes, investisiya və xeyriyyəçilik platformasında (BIPCP) da dayanıqlı maliyyə infrastrukturlarının qurulması yönündə müsbət siqnallar verildi, biznes, maliyyə və xeyriyyə cəmiyyətlərinin liderləri, o cümlədən ümumi aktivləri 10 trilyon dollar olan investorlar özəl kapitalın iqlim bazarlarına yönləndirilməsi üçün ilk dəfə bir araya gələcəklərini bəyan etdi.

Göründüyü kimi, COP29-da iqlim maliyyələşməsi ilə bağlı yekun niyyət razılaşmalarının əldə olunması bu sahədə əməkdaşlığın yeni təməllərini qoydu. Bu prosesin növbəti addımı kimi Braziliyada keçiriləcək COP30-da əlavə razılaşmaların olacağı gözlənilir.

Beləliklə, "Bakıdan Belemə" adlı yol xəritəsi beynəlxalq iqlim ailəsinin üzərinə götürdüyü 1,3 trilyon dollarlıq maliyyə öhdəliyinin əməl olunmasında mühüm rol oynayacaq.

***ELBRUS CƏFƏRLİ***

# "Sülh göyərçini"ndən atəş əmri...

## Şərti sərhəddə təxribatlar səngimir

**Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin mətninin razılaşdırılmasından sonra regionda dayanıqlı sabitliyin təmin edilməsi imkanı yaranıb. Rəsmi İrəvan sülh sazişini imzalamağa hazır olduğunu bəyan etsə də, bunun üçün məlum şərtləri yerinə yetirməyi unutmamalıdır. Amma görünən odur ki, erməni tərəfi yenə də spekulyasiya etməklə məşğuldur. Əgər belə olmasaydı, özünü "sülh göyərçini" təqdim edən Ermənistan sazişi imzalamaq üçün praktiki addımlar atmaq əvəzinə, şərti dövlət sərhədində hərbi təxribatlar törətməzdi.**

### Erməni hiyləgərliyi...

Məlumdur ki, martın 13-də rəsmi Bakı iki ölkə arasında sülh müqaviləsi üzrə bütün bəndlərin razılaşdırıldığını və layihə üzrə danışıqların başa çatdığını bəyan edib. Erməni tərəfi də bu faktı təsdiqləyib, hətta müqavilənin imzalanmasının vaxtını və yerini müəyyən etmək üçün danışıqlara hazır olduğunu iddia edib. Əslində isə bu, ənənəvi erməni hiyləgərliyindən başqa bir şey deyil. Çünki sülh üçün ümidlərin artdığı vaxtlarda erməni tərəfi həmişə təxribatlar törədib. Ermənistan bu dəfə də "ənənəsinə" sadiq qalıb. Belə ki, sazişin mətnin razılaşdırılmasından sonra erməni tərəfi davamlı olaraq şərti sərhəddə təxribatlar törədir. Ermənistan hərbi birləşmələri Basarkeçər, Dərələyəz, Gorus və digər ərazilərdə ordumuzun Naxçıvan, Kəlbəcər, Tovuz və s. istiqamətindəki mövqelərini atəşə tuturlar. Sonuncu belə təxribat Azərbaycan Müdafiə Nazirliyinin mayın 14-də yaydığı məlumatına görə, Gorus və Çəmbərək rayonları istiqamətlərində olub. Belə ki, həmin ərazidə yerləşən erməni hərbçilər Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.



### Ordumuz heç vaxt mülki əhaliyə və obyektlərə atəş açmır

Lakin erməni tərəfi bütün bunları təkzib etməyə çalışır, Ermənistan ordusu tərəfindən atəşkəs rejiminin pozulması halının baş vermədiyini iddia edirlər. Hətta bir neçə gün öncə Ermənistan Müdafiə Nazirliyi guya Azərbaycan Ordusunun bölmələri tərəfindən Xanazax yaşayış məntəqəsi istiqamətində atəş açılması və yaşayış evinin zədələnməsi barədə tamamilə yalan və dezinformasiya məqsədi daşıyan məlumat yayıb. Bununla da, ermənilər beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırmağa və növbəti təxribatlarına zəmin yaratmağa cəhd edir. Azərbaycan Müdafiə Nazirliyi isə bəyan edib ki, ordumuzun bölmələri heç vaxt mülki əhaliyə və obyektlərə atəş açmır. Yalnız qarşı tərəfə adekvat cavab verilir.

Bundan əlavə, erməni rəsmiləri atəşkəs rejiminin pozulması hallarının və ya oxşar məlumatların araşdırılması üçün birgə Ermənistan-Azərbaycan mexanizminin yaradılması təklifini tez-tez xatırlatmaqla məşğuldur. Əslində, bütün bunlar erməni tərəfinin manipulyasından başqa bir şey deyil. Rəsmi İrəvan həm atəşkəs, həm konstitusiyada dəyişikliklər, həm də kommunikasiyaların açılması ilə bağlı qeyri-ciddi təkliflər və mülahizələr irəli sürür. 30 il Azərbaycana qarşı işğalçı siyasəti yürütmüş bir ölkənin hazırda özünü konstruktiv tərəf kimi təqdim etməyə çalışması absurddur.

Sual olunur, rəsmi İrəvan sülh müqaviləsini imzalamağa hazırdırsa, nə üçün şərti dövlət sərhədində davamlı hərbi təxribatlar törədir? Əlbəttə, erməni tərəfi əvvəlki təcrübəyə əsasən faktiki sülhə maraqlı olmadığını nümayiş etdirir. Təsadüfi deyil ki, Ermənistan hakimiyyətinin xarici auditoriyaya yönəlmiş sülhə hazır olması barədə bəyanatlarına baxmayaraq, vaxtaşırı olaraq mediada Azərbaycanla yeni müharibəyə fəal şəkildə hazırlaşması barədə məlumat yayılır. Rəsmi İrəvanın son hərəkətlərinin bütün məntiqi, revanşist əhval-ruhiyyə ilə dolu və güclü şəkildə militarizasiya olunan, regionun tezliklə erməni tərəfinin təhrik etdiyi növbəti müharibə ilə üzləşəcəyi haqda fikirlər səsləndirilir. Sülh sazişi ilə bağlı danışıqların yekunlaşmasından sonra Ermənistanda müharibəyə hazırlıqların getdiyini sübut edən digər faktlar da var. Belə ki, kütləvi informasiya vasitələri tərəfindən bu yaxınlarda Ermənistanın Azərbaycanla şərti sərhəddəki erməni postlarında mühəndis-istehkam işləri həyata keçirməsi barədə video-görüntülər yayımlanıb.

Bütün bunların fonunda sülh sazişinin qısa müddətdə imzalanması ilə mətndən kənar məsələləri arxa fona keçirməyə çalışan N.Paşinyan bəzi dövlətlərin dəstəyini əldə edərək Azərbaycan qarşısında balansı öz xeyrinə dəyişdirməyə cəhd göstərir. Erməni tərəfinin diplomatik addımlara paralel olaraq, şərti sərhəddə yenidən təxribatlara əl atmaları da beynəlxalq gündəliyi "regional sabitliyin yolu sülh sazişinin qısa müddətdə imzalanmasından keçir" istiqamətində formalaşdırmaq məqsədi daşıyır. Qarşıdakı dövrdə təxribatın və "sazişin tezliklə imzalanması" çağırışlarının intensivliyinin artması da istisna deyil. Bundan əlavə, Ermənistan Azərbaycanla sərhəddə gərginlik yaratmasından Qərbdən və Hindistandan yeni silahlar alınmasını özü üçün bir bəhanə kimi istifadə edə bilər. Yeni

### Ermənistanın silahlanması region üçün təhdiddir

bu təxribatlar Ermənistan ordusunun gücləndirilməsi cəhdi üçün də istifadə olunur. Hətta Ermənistanın yeni aldığı silahların sərhəddə toplanması barədə mediada məlumatlar da yayılıb. Bu, bir daha həmin silahların Paşinyan hakimiyyətinin dediyi kimi müdafiə üçün deyil, hücum məqsədli olduğunu göstərir. Avropa İttifaqının "mülki missiyasının" Ermənistanın son təxribatlarına səssiz qalması da bu baxımdan, ciddi suallar yaradır.

Bütün hallarda, rəsmi İrəvanın hazırkı davranışı qəbulolunmazdır. Erməni tərəfi anlamalıdır ki, Azərbaycanın şərtlərini yerinə yetirməklə sülh sazişini imzalamalıdır. Yəni, sülh müqaviləsinin mətni üzrə danışıqlar yekunlaşsa da, sənədi imzalamaq üçün İrəvan məlum şərtləri yerinə yetirməlidir. Belə ki, Ermənistan konstitusiyasında və digər normativ hüquqi aktlarda Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dair iddialar aradan qaldırılmalıdır. Paşinyanın və digər erməni rəsmilərinin "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır" sözlərinin heç bir hüquqi qüvvəsi yoxdur. Yəni bu məsələlər hüquqi sənədlərlə tənzimlənir. Ermənistanın konstitusiyasında, müstəqillik bəyannaməsində və parlamentinin qərarlarında ölkəmizə qarşı ərazi iddiaları hələ də mövcuddur. Ona görə də, Azərbaycan öz tələblərində haqlıdır. Rəsmi İrəvanın başqa seçimi yoxdur.

***Nardar BAYRAMLI***

# Korsikanın müstəqilliyi uğrunda...

## BTQ-nin dəstəyi ilə Korsika xalqının azadlıq mübarizəsi beynəlxalq müstəviyə çıxarılıb

Azərbaycan müstəmləkəçiliyə və neokolonializmə qarşı mübarizə aparan xalqları dəstəkləyir. Dövlətimiz bu mövqeyini bütün beynəlxalq platformalarda bəyan edib. Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının 2023-cü il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb. Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu ölkəmizdə və xaricdə, o cümlədən BMT müstəvisində həmin xalqların hüquqları ilə bağlı çoxlu beynəlxalq konfrans təşkil edib.

### Romada keçirilən konfrans...




Yeri gəlmişkən, mayın 13-də İtaliyanın paytaxtı Romada Bakı Təşəbbüs Qrupunun (BTQ) və Korsikanın müstəqilliyi uğrunda mübarizə aparan "Nazione" Hərəkatının birgə təşkilatçılığı ilə "Milli kimlik, müqavimət və suverenlik: Korsika üçün perspektivlər" adlı tematik konfrans keçirilib. Konfransda "Nazione" Hərəkatının rəhbər və səlahiyyətli nümayəndələri, eyni zamanda, Azərbaycan Milli Məclisində fəaliyyət göstərən Korsika Xalqına Dəstək Qrupunun üzvü Tural Gəncəliyev iştirak edib. Tədbir bir il öncə, 2024-cü il mayın 13-də Fransanın hüquq-mühafizə orqanları və onların dəstəklədiyi qeyri-qanuni milis dəstələri tərəfindən Kanakidə (Yeni Kaledoniya) qətlə yetirilmiş kanakların xatirəsinin yad edilməsi ilə başlayıb.

BTQ-nin icraçı direktoru Abbas Abbasov çıxışında rəhbərlik etdiyi təşkilatın kanak, Korsika və digər müstəmləkə altında yaşayan xalqların qanuni mübarizəsini dəstəklədiyini bildirib və bu xüsusda görülmüş işlərdən danışıb.

Konfrans çərçivəsində "Nazione" Hərəkatının üzvləri Fransa müstəmləkə siyasətindən əziyyət çəkən Korsika xalqının qarşılaşdığı əsas çağırışlar - Korsika milli kimliyinin və Korsika dilinin Fransa hökuməti tərəfindən məqsədli şəkildə assimilyasiya edilməsi siyasətini kəskin pisləyib, eləcə də qarşılaşdıqları iqtisadi və sosial diskriminasiya faktlarını diqqətə çatdırıblar.

"Nazione" Hərəkatının gənclər bölməsinin rəhbəri Kilianu Beqliomini çıxışını Korsika xalqının milli kimliyində böyük rol oynayan Korsika dilinə həsr edərək korsikalı yazıçı Lisandru Bassaninin "Korsika dili Korsika xalqının milli kimliyinin məbədidir" fikrini səsləndirib. O, Korsika xalqının öz ana dilində danışmaq istəyinin kolonial Fransa tərəfindən qarşısının alındığını vurğulayaraq beynəlxalq ictimaiyyətin bu məsələyə diqqətini cəlb etmək üçün beynəlxalq mexanizmlərə müraciət edildiyini bildirib.

Hərəkatın üzvləri Terri Kasolasko və Jan-Filip Antolini Korsika xalqının müqaviməti haqqında danışaraq vəziyyətini belə davam edəcəyi təqdirdə minillik tarixi olan Korsika xalqının tarixdən silinəcəyini bildirib.

Çıxış edənlər Fransa hüquq-mühafizə orqanlarının diktəsi ilə adada fəaliyyət göstərən qeyri-rəsmi dəstələr (Barbouzard) vasitəsilə Korsika xalqının müstəqilliyi uğ-

### Fransa Korsika xalqını ana dilindən məhrum etməyə çalışır

runda mübarizə aparan şəxslərin qətlə yetirilməsi cəhdləri və həmin xidmətin əməkdaşlarının medallarla




təltif edildikləri barədə danışıblar.

"Nazione" Hərəkatının beynəlxalq bölməsinin rəhbəri Fransois Benedetti müstəqil Korsikanın 1755-ci il tarixli Konstitusiyasına istinad edərək "Qanuni əsasda özünün yiyəsi olan Korsika xalqı..." ifadəsini xatırladıb. O, adanın 1769-cu ildə Fransa tərəfindən işğal olunduğunu qeyd edərək Korsika xalqının öz müstəqilliyini bərpa etmək istəyinin müzakirə obyekti olmadığını bildirib, "Nazione" Hərəkatının bu istiqamətdə mübarizəsinin davam edəcəyini deyib. O, hazırda əsas hədəfin Korsikanın BMT-nin dekolonizasiya edilməli olan əraziləri siyahısına daxil edilməsinin olduğunu bildirib və BTQ-dən bu istiqamətdə dəstək göstərilməsini xahiş edib.

### BTQ və "Nazione" Hərəkatı əməkdaşlıq memorandumu imzalayıb

Milli Məclisin deputatı Tural Gəncəliyev Korsikanın işğalının tarixi aspektləri, eləcə də adanın dövlətçilik ənənələrindən danışıb və Korsika xalqının müstəqilliyə haqqının olduğunu vurğulayıb. O, korsikalı deputatları Azərbaycana dəvət edərək əməkdaşlığa hazır olduqlarını deyib.

Konfrans zamanı Bakı Təşəbbüs Qrupu və "Nazione" Hərəkatı arasında əməkdaşlıq memorandumu imzalanıb. Sənədə əsasən, BTQ və "Nazione" kolonializm və neokolonializmə qarşı mübarizə aparmaq və insan hüquqlarının müdafiəsi məsələsində əməkdaşlıq etməyə dair razılığa gəliblər. Bu məqsədlə tərəflər müştərək təşəbbüslər həyata keçirəcəklər. Bundan əlavə, BTQ və "Nazione" beynəlxalq platformalarda birgə addımlar atacaq.

***N. BAYRAMLI***

# Təhsil proqramları necə hazırlanır?

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti üzrə hazırlanmışdır**

### Dünya ölkələri fərqli metodlardan istifadə edir

Cəmiyyətin bütün sahələr üzrə inkişafını təmin etmək üçün elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarının hazırlanması olduqca vacibdir. Çünki dövlətin inkişafını şərtləndirən ən mühüm amillərdən biri də onun təhsil sektorunu inkişaf etdirməkdir. Müstəqil Azərbaycan dövlətini bugünkü inkişaf səviyyəsinə çatdırmaq üçün bir çox sahələr üzrə mühüm işlər görülür. Onlardan ən əsası təhsil sistemində edilən yeniliklərdir. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması dövlət siyasətinin əsas prioritetlərindən biri olduğu üçün bu istiqamətdə qəbul olunan proqramlar sözügedən sektorun inkişafını əhəmiyyətli dərəcədə artırır.

Hazırda ölkəmizdə təhsil sistemində bir sıra yeniliklər tətbiq edilməkdədir. Eyni zamanda günbəgün inkişaf edən müasir texnoloji biliklər, eləcə də dünyada baş verən hadisələrə fərqli baxış təhsil proqramları və onların metodikasının da daim yenilənməsini tələb edir.

**Dünya təcrübəsi nə deyir?**

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən təhsil üzrə ekspert Elşən Qafarov bildirib ki, elm və təhsil sahəsində inkişafı təşviq etmək üçün elmi-kütləvi proqramların hazırlanması və geniş ictimaiyyətə çatdırılması sistemli şəkildə həyata keçirilməlidir: "Dünya təcrübəsinə nəzər saldıqda, bu sahədə ən uğurlu modellərdən biri Finlandiyada tətbiq olunur. Finlandiya təhsil sistemi yalnız məktəblərə fokuslanmır, həm də cəmiyyətdə elmi biliklərin və mədəni dəyərlərin yayılması üçün mədəni-maarif layihələr həyata keçirir. Məsələn, elmi muzeylərdə və kitabxanalarda interaktiv təhsil proqramları, açıq ictimai müzakirələr və seminarlar təşkil olunur. ABŞ-da isə mədəniyyət və təhsil proqramlarının inkişafı əsasən qeyri-kommersiya təşkilatları tərəfindən maliyyələşdirilir. Bu proqramlar əhalinin bütün təbəqələrinə yönəlib və müxtəlif mövzuları əhatə edir. Məsələn, Smithsonian İnstitutu ölkə daxilində elmi və mədəni maarifləndirmə işləri görür və milyonlarla insana təhsil resursları təqdim edir. İngiltərədə isə elmi-kütləvi proqramlar BBC kimi media qurumları vasitəsilə geniş auditoriyaya çatdırılır. Bu modellərdən Azərbaycanda da, xüsusən də mədəniyyət və elm sahələrinin inteqrasiyası baxımından istifadə edilə bilər".



**Telekanalların rolu vacibdir**

E.Qafarov hesab edir ki, müasir mətbuat Azərbaycanda maarifləndirmə proqramlarının təbliğində mühüm rol oynaya bilər: "Hazırda bəzi televiziya kanalları və onlayn platformalar elm və təhsil mövzularına diqqət ayırsa da, bu sahədə sistemli fəaliyyət mövcud deyil. Mətbuatda təhsil və mədəniyyət məsələlərinin təbliği üçün daha mütəşəkkil yanaşma tələb olunur. Məsələn, müasir dövrdə sosial medianın təsiri böyükdür və maarifləndirici məzmunun sosial şəbəkələrdə yayımlanması gənclərə daha yaxşı çatdırıla bilər. Bununla yanaşı, təhsil kanallarının yaradılması və ya mövcud kanallarda maarifləndirici proqramların sayının artırılması məqsədəuyğun olardı. Dünya təcrübəsində bu yanaşmanın uğurlu nümunələri mövcuddur. Hindistanın "Doordarshan" kanalı və ABŞ-ın "PBS" kanalı maarifləndirmə və təhsili mətbuat vasitəsilə təşviq etməkdə nümunədir".

**Gənclərin innovativ proqramlarla tanışlığı vacibdir**

Təhsil eksperti sözlərinə görə, işğaldan azad olunmuş ərazilərdə elmi-kütləvi maarifləndirmə proqramlarının tətbiqi xüsusi əhəmiyyət kəsb edir: "Bu ərazilərdə məktəblərin bərpası, yeni təhsil mərkəzlərinin qurulması və əhalinin maarifləndirilməsi böyük önəm daşıyır. Hazırda bu sahədə müəyyən irəliləyişlər müşahidə olunur, lakin irəliləyişlərin daha təsirli və davamlı olması üçün əlavə səylərə ehtiyac var. Məsələn, Qarabağda elmi və mədəni mərkəzlərin yaradılması, bu bölgələrdə yaşayan gənclərin innovativ proqramlarla tanış edilməsi vacibdir. Ümumilikdə, elmi-kütləvi və mədəni-maarif proqramlarının ölkəmizdə uğurlu həyata keçirilməsi üçün daha geniş koordinasiya, dövlət və qeyri-dövlət sektorlarının əməkdaşlığı, həmçinin dünya təcrübəsindən istifadə edilməlidir. Bu sahədə fəaliyyətlər yalnız paytaxtla məhdudlaşmamalı, regionlara və hətta ən ucqar kəndlərə qədər çatdırılmalıdır. Maarifləndirmə fəaliyyətlərinin həm məzmunu, həm də forması yerli ehtiyaclara uyğun şəkildə planlaşdırılmalı və həyata keçirilməlidir. Beləliklə, bu proqramlar həm təhsil sisteminin keyfiyyətini artırar, həm də cəmiyyətin ümumi maarifləndirmə səviyyəsini yüksəldər".

***Yeganə***

# Avropa Bankından bədbin proqnoz

## ABŞ-ın idxal rüsumlarının qlobal iqtisadiyyata təsirləri barədə ehtimallar açıqlanıb

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) "Regional iqtisadi perspektivlər" adlı may hesabatında ABŞ-ın ticarət siyasətində baş verən dəyişikliklərin, o cümlədən gözlənilən sərt tarif tədbirlərinin qlobal iqtisadiyyata təsirləri və itkiləri barədə proqnozlar yer alıb. Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp mart ayında xarici ticarət tərəfdaşlarına qarşı idxal rüsumlarının tətbiqi barədə fərman verib. Sənədin hüquqi qüvvəsi müəyyən müddətə təxirə salınsa da, sərt rüsum rejiminin tətbiqindən imtina olunmayacağı bəyan olunub. 2 kateqoriya üzrə təsnifləşdirilən rüsum siyasətinin birinci kateqoriyası Avropa İttifaqı (Aİ) və digər region ölkələrini əhatə edir.



Aİ üzrə idxal olunan məhsullar üçün orta 20 faizlik idxal rüsumu dərəcəsi nəzərdə tutulur. Digər region ölkələrindən bütün malların idxalı üçün minimum baza rüsumu 10 faiz həddində müəyyənləşdirilib. Buraya Böyük Britaniya, Braziliya, Argentina, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Ukrayna və bir çox postsovet ölkələri daxildir. Belə ki, Azərbaycan, Ermənistan, Gürcüstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistanda eyni rüsum dərəcəsi qüvvədə olacaq. Postsovet regionundan yalnız Moldova 31 faiz, Qazaxıstan isə 27 faizlik rüsumla ticarət rejiminə cəlb edilib. İdxal məhdudiyyətləri siyahısında Rusiya yer almır.

ABŞ-ın idxal rüsumları üzrə müəyyənləşdirdiyi ikinci kateqoriyaya Çin, uzaq Asiya və Afrika bölgəsi daxildir. Bu tarif siyasətinə əsasən, Çindən ABŞ-a idxal olunan bütün məhsullara 34 faiz idxal rüsumu tətbiq olunacaq. Asiyanın digər ölkələrindən Vyetnama 46 faiz, Kambocaya 49 faiz, Laosa 48 faiz rüsum tətbiqi planlaşdırılır.

**Avropa İttifaqı üçün risklər qaçılmazdır**

AYİB hesab edir ki, ABŞ-ın yeni tariflərinin tətbiqindən ən böyük potensial itkilər Slovakiyada (ÜDM-in 0,8 faizi) İordaniyada (ÜDM-in 0,6 faizi) və Macarıstanda (ÜDM-in 0,4 faizi) qeydə alına bilər. Qeyd edək ki, Slovakiya və Macarıstanın ABŞ-yə ixrac etdiyi əsas məhsullara avtomobillər, avtomobil komponentləri, akkumulyatorlar və elektronika daxildir. Bu ölkələrin ümumi ixracında ABŞ-ın payı 3-4 faiz təşkil edir. Avtomobil və akkumulyator ixracında ABŞ-ın payı isə ümumi ixrac həcminin təxminən 7-12 faizinə bərabərdir. Eləcə də digər əhəmiyyətli itki Almaniya iqtisadiyyatına gözlənilir, ümumi təsir isə ÜDM-in 0,5 faizi həddində ehtimal olunur. Almaniyanın ABŞ-a ixracında da əsas mallar avtomobil və maşınqayırma sənayesidir. Avropa İttifaqı ölkələrindən Çexiya, Estoniya və Latviyanın da ticarət rejiminin təsirlərinə məruz qalacağı istisna deyil.

**Çin üçün təsirlər**

Çin üçün isə təsirlər təxminən ÜDM-in 2,5 faizi səviyyəsində qiymətləndirilir. Çinin ixracının 13 faizə bərabər olduğu ABŞ-da mal çeşidlərinin strukturu hədsiz genişdir, sənayedən müxtəlif məişət mallarına qədər çeşidlər ticarət zənbilində yer alır. 2001-ci ildə ABŞ ilə azad ticarət sazişi imzalayaraq qaydalara riayət etməklə bu ölkənin bazarına demək olar ki, tam rüsumsuz giriş əldə edən İordaniya da ticari risklərdən sığortalanmayıb. ABŞ-a ixracı əsasən zərgərlik məmulatları və geyimdən ibarət olan İordaniyanın ÜDM-nin 5,7 faizi, ümumi ixracatının isə təxminən 23 faizi superdövlətlə bağlıdır.Bu ölkənin ABŞ-la ticarət balansının müsbət saldosu isə ÜDM-nin 2,4 faizini təşkil edir.

ABŞ-ın digər ən böyük ticarət tərəfdaşları olan Hindistan və Səudiyyə Ərəbistanın isə müvafiq olaraq ixracatının təxminən 14 və 11,5 faizi superölkəni əhatə edir. Ticari "sanksiyalara" məruz qaldığı halda hər iki ölkənin tekstil və zərgərlik sektorlarında daha çox asılılıq nəzərə çarpa bilər. Amerika qitəsindən isə Meksikanın avtomobil sənayesinin əziyyətlə üzləşəcəyi gözlənilir.

**Afrika ölkələri üçün əlavə risklər də gözlənilir**

Afrika ölkələrinə gəlincə, Avropa Bankı tariflərin ən böyük potensial təsirinin Kot-d'İvuara sirayət edəcəyini proqnozlaşdırır. Seneqal isə tekstil məhsulları üzrə ixracda çətinliklər yaşaya bilər. Bu region üçün əlavə risk Afrika Artım və İmkanlar Aktının (AGOA) dayandırılması ilə bağlı gözlənilir. Belə ki, AGOA şərtlərinə əsasən, 30-dan çox Afrika ölkəsi ABŞ bazarına rüsumsuz girişlə təmin olunur ki, aktın hüquqi qüvvəsi 2025-ci ilin sentyabrında başa çatır. Amerikanın güzəşt aktının yenidən artıracağı barədə ümidlər çox azdır.

AYİB ekspertlərinin qənaətinə görə, ümumilikdə, ABŞ-ın gömrük proteksionizmi üzrə qiymətləndirmələr qlobal təchizat zəncirlərinə dolayı təsir göstərəcək və ticarət axınlarını dəyişikliyə uğradacaq.

***E.CƏFƏRLİ***

# Yaxın Şərqdə yeni mərhələ

## ABŞ Suriyanı "bağışladı"...

ABŞ Prezidenti Donald Trampın "Körfəz turu" mühüm məqamları ilə seçilir. Xüsusilə, mayın 13-də Suriya ilə bağlı bütün sanksiyaların ləğv olunduğunun elan edilməsi həm rəsmi Dəməşq üçün, həm də regionda formalaşan yeni nizam üçün mühüm perspektivlər deməkdir. Qeyd edək ki, bu qərar, Bəşər Əsədin 2024-cü ilin dekabrında devrilməsindən sonra hakimiyyətə gələn keçid hökuməti ilə münasibətləri normallaşdırmaq məqsədi daşıyır. Tramp öz nitqində yeni rəhbərliyin ölkədə sabitlik və sülhü təmin etmək üçün bir şans qazanması lazım olduğunu vurğulayıb.

## Ankara növbəti dəfə gücünü, qətiyyətini və regional çəkisini nümayiş etdirdi...

Yeri gəlmişkən, Donald Tramp Səudiyyə Ərəbistanına səfəri çərçivəsində Suriyanın keçid dövrü Prezidenti Əhməd Əş-Şəraa ilə görüşüb. Bu, son 25 ildə iki ölkənin liderləri arasında ilk görüşdür.

## Ləğv edilən sanksiyalar...

Xatırladaq ki, ləğv olunan sanksiyalar, əsasən 2019-cu ildə qəbul edilən və 2020-ci ildə qüvvəyə minən "Sezar Suriya Mülki Müdafiə Qanunu" (Caesar Act) çərçivəsində tətbiq edilmişdi. Bu qanun, Əsəd rejiminin müharibə cinayətlərinə görə enerji, infrastruktur, hərbi və maliyyə sektorlarını hədəf alırdı. 2025-ci ilin yanvarında ABŞ keçid hökumətinə dəstək məqsədilə bəzi sanksiyaları müvəqqəti olaraq yumşaltmışdı. Bu, enerji, su, səhiyyə və digər əsas xidmətlərlə bağlı məhdudiyyətlərin 6 aylıq ləğvini əhatə edirdi. Trampın son qərarı isə sözügedən müvəqqəti addımı tam sanksiyaların ləğvi ilə əvəz edir. Bir çox ekspertlər bu addımın Suriya iqtisadiyyatının bərpasına və beynəlxalq əlaqələrin genişlənməsinə geniş imkanlar yaradacığını önə sürürlər. Eyni zamanda, bu addımı ABŞ-ın Yaxın Şərq siyasətindəki dəyişikliklərin siqnalı hesab edənlər də var. O baxımdan ki, Tramp hakimiyyətə gəldiyi dövrdən Yaxın Şərqlə bağlı həm şifahi, həm də əsaslı olaraq fərqli siyasi xətt yürüdəcəyini bəyan edir. Müəyyən ştrixlərdə bunu görmək isə çətin deyil. Hətta Trampın bu siyasi xəttini məcburi "loyal-liberal" yanaşma prizmasından da dəyərləndirirlər. Amma hər bir halda görünən odur ki, ABŞ yeni münasibətlər sistemini silah gücünə deyil, tam əksinə, iqtisadi rıçaqlar üzərindən qurmağa meyllidir. İnvestisiya planları və Yaxın Şərq- ABŞ münasibətlərinin yeni ab-havası bu faktı təsdiqləyir.



## Türkiyə addım-addım irəli...

Qeyd edək ki, Trampın bu qərarı verməsində ən mühüm amillərdən biri Türkiyə faktorudur. Təsadüfi deyil ki, Tramp Suriya ilə bağlı qərarının Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla aparılan danışıqlar nəticəsində formalaşdığını bildirib. ABŞ-Suriya münasibətlərinin normallaşdırılması istiqamətində ilk real siyasi addım olaraq qiymətləndirilən sanksiyaların ləğvində Ankaranın mühüm rol oynaması qardaş ölkənin regional anlamda oynadığı rolun təsdiqidir. Paralel olaraq, Trampın bu qərarı Prezident Ərdoğanla məsləhətləşmədən sonra qəbul etməsini bildirməsi həm də bir mesajdır:

- Digər regional mərkəzlərə Türkiyənin Yaxın Şərqdəki siyasi proseslərə təsir imkanları nümayiş etdirilir;

- Yaxın Şərq və Körfəz regionunda yeni nizam qaydalarının formalaşmasında Ankaranın rolu dəyərləndirilir;

- Xüsusilə, keçmiş kataklizmlər zonasında sabitliyin və yeni inkişaf mərhələsinin formalaşdırılmasında Türkiyənin həm siyasi, həm iqtisadi, həm də diplomatik çəkisini xatırladır.

ABŞ Suriya məsələsində ən mühüm məsləhətləşmələri Türkiyə ilə aparmaqla özünün digər regional müttəfiqlərinə mesajlar verir - Ankara ilə münasibətlər normal səviyyədə inkişaf etdirilməlidir...




## Türkiyənin əhəmiyyəti və rolu...

Ümumiyyətlə, qeyd edilməlidir ki, Donald Tramp həm əvvəlki prezidentliyi dövründə, həm də son 4 ayda yürütdüyü siyasi xəttdə dövlət başçıları ilə münasibətlərə üstünlük verməsi ilə diqqəti cəlb edir. ABŞ prezidenti bu amili xarici siyasətdə əsas alətlərdən biri kimi istifadə edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla şəxsi münasibətləri və birbaşa ünsiyyətləri də Suriya kimi bir çox qərarların formalaşmasına təsir edib və bu Tramp tərəfindən də təsdiqlənib. Məsələn, Tramp Ərdoğanın Suriyada yeni keçid rəhbərliyinə verdiyi dəstəyi və bu rəhbərliyin ABŞ-ın maraqlarına zidd olmadığını açıq şəkildə qəbul etmiş və bunu "bölgədə sabitliyin açarı" kimi qiymətləndirmişdir.

Vurğulanmalıdır ki, Türkiyə də son illərdə həm siyasi, həm də iqtisadi parametrlər üzrə regionun əsas dövləti qismində çıxış edir - hətta qlobal müzakirələrdə artıq Ankara xüsusi söz sahiblərindən biri sayılır. Türkiyə bölgədə baş verən hadisələrlə bağlı həm tənzimləyici, həm də zəmanətverici faktor kimi çıxış edir. Suriya məsələsində də bunu gözdən qaçırmaq olmaz - məsələn, Tramp administrasiyası sanksiyaların ləğvi qarşılığında müəyyən iqtisadi və təhlükəsizlik zəmanətləri ilə bağlı fikirlər səsləndirirdi ki, Türkiyə bu məsələnin də tənzimlənməsində öncül rol oynayıb. Xüsusilə, yeni keçid hökumətinin insan haqları sahəsində öhdəliklər götürməsi, Suriyada xarici radikal təsirlərin azaldılması, Rusiya ilə balanslaşdırılmış münasibətlərin qorunması və terror təşkilatlarına qarşı konkret addımların atılması, xüsusilə PKK-nın özünü buraxması qərarı Türkiyənin apardığı diplomatik siyasətin təntənəsi sayıla bilər.

Eyni zamanda, ABŞ-ın bir çox şirkətlərinin Suriya ərazisindəki bərpa və yenidənqurma layihələrində yaxından iştirakı istisna olunmur. Bu fakt ABŞ-ın iqtisadi maraqlarının da prosesə cəlb edilməsi deməkdir ki, bu da özlüyündə təhlükəsizlik baxımından olduqca mühüm addımdır.

## Vaşinqton Ankara ilə məsləhətləşir...

Tramp verdiyi qərarda Prezident Ərdoğanın Suriyanın bərpası üçün çağırışlarını əsas səbəblərdən biri kimi göstərdi - qərar birbaşa olaraq ABŞ-ın Suriya ilə münasibətlərində dönüş nöqtəsi sayılsa da, Ankara bu prosesin arxa səhnəsində ciddi diplomatik və strateji fəaliyyət göstərib. Türkiyə uzun illərdir ki, Suriyada həm təhlükəsizlik, həm də humanitar sahədə fəal mövqe tutur. Ankara həm Əsəd rejiminə qarşı qətiyyətli mövqeyi ilə seçilir, həm də sərhədyanı bölgələrdə sabitlik yaradılması üçün səfərbər olub. Suriyada yeni keçid hökumətinin formalaşdırılması prosesində də Türkiyə əsas vasitəçilərdən biri sayılır - beynəlxalq arenada bu hökumətə legitimlik qazandırmaq üçün göstərilən səylər bunu təsdiqləyir. Təsadüfi deyil ki, Trampın sanksiyaları ləğv etmək qərarından öncə 2025-ci ilin mart və aprel aylarında Ankarada və Ər-Riyadda keçirilən çoxsaylı ikitərəfli və çoxtərəfli görüşlərdə Türkiyə nümayəndələri ABŞ diplomatları ilə intensiv təmaslarda olmuş, Suriyada yeni siyasi düzənin qurulduğunu və Əsəd sonrası dövrə keçidin dəstəklənməsinin zəruriliyini vurğulamışdılar.

## ABŞ təsdiqləyir...

Beləliklə, Trampın Suriyaya qarşı sanksiyaları ləğv etməsi təkcə ABŞ-ın yeni regional siyasətinin göstəricisi deyil, həm də Türkiyənin son illərdə apardığı ağıllı və strateji diplomatiyanın nəticəsidir. Ankara həm müasir reallıqları düzgün oxuyaraq, həm də beynəlxalq güclərlə çevik dialoq quraraq bu mühüm qərarın qəbul edilməsində əsas vasitəçilərdən biri olub.

Bu hadisə Türkiyənin yalnız bölgədəki hərbi varlığını deyil, eyni zamanda diplomatik gücünü də təsdiqləyir. Trampın bu qərarı Suriyada sülhə doğru gedən yolun açılmasında mühüm addım olmaqla yanaşı, Türkiyənin regional güc kimi beynəlxalq siyasətdəki rolunun artdığını da sübut edir.

***P.İSMAYILOV***

---

# "Dost Aktı" dost jestidirmi?

## Gürcüstanın Baş naziri ABŞ Prezidentinə açıq məktub ünvanlayıb

Son vaxtlarda qonşu Gürcüstanla Qərb bloku, o cümlədən də Amerika Birləşmiş Ştatları arasında ziddiyyətlər açıq müstəviyə keçib. Belə görünür ki, rəsmi Tbilisinin Ağ Evin yeni rəhbərliyinə bəslədiyi ümidlər də özünü doğrultmur. Baş nazir İrakli Kobaxidzenin bu günlərdə ABŞ Prezidenti Donald Trampa və vitse-prezident Cey Di Vensə ünvanladığı açıq məktubda ifadə olunan fikirlər bu qənaəti daha da möhkəmləndirir. Yerli KİV-in verdiyi məlumata görə, məktubda Kobaxidze ABŞ-ın yeni administrasiyasını Gürcüstanla bağlı susqunluğa son qoymağa çağırır. O qeyd edir ki, bir neçə həftə əvvəl ABŞ-a rəsmi məktub göndərməsinə baxmayaraq, hələ də heç bir cavab almayıb. Baş nazir bu susqunluğun Gürcüstan xalqında və hökumətində ciddi təəccüb doğurduğunu bildirir.

## USAID, NED, Soros Fondu kimi təşkilatların cinayətkar fəaliyyətləri

Yaxın keçmişədək Gürcüstanla ABŞ arasında münasibətlər yüksək səviyyədə idi. İ.Kobaxidze məktubda Gürcüstanın illərlə ABŞ-ın ən çətin regionda ən etibarlı tərəfdaşı olduğunu, İraq və Əfqanıstandakı hərbi missiyalarda iştirak etməklə bu ölkənin büdcəsinə 2,5 milyard dollar qənaət etdiyini xatırladıb. O, ABŞ-ın Gürcüstana ayırdığı real yardımın bu rəqəmlə müqayisədə daha az olduğunu vurğulayıb.

Rəsmi Tbilisinin Ağ Evdən incikliyinin səbəbi heç də ABŞ-ın Gürcüstana ayırdığı yardımların həcminin az olması ilə bağlı deyil. Bunun üstündən sükutla keçmək olardı. Ancaq təsdiq olunmuş faktdır ki, ABŞ-a məxsus ayrı-ayrı qurumlar Gürcüstanda qanuni hakimiyyətin devrilməsini hədəfləyən, gürcü xalqının milli maraqları ilə ziddiyyət təşkil edən fəaliyyətlər sərgiləyiblər. Baş nazir USAID, NED, Soros Fondu və digər qurumların Gürcüstanda radikalizm və ekstremizmi təşviq etmək, Pravoslav Kilsəsinin nüfuzunu zədələmək və dövlət institutlarını zəiflətmək istiqamətində fəaliyyət göstərdiyini, bu proseslərin ABŞ-ın real yardımına daxil olmadığını vurğulayıb.

Qeyd olunan təşkilatların Gürcüstanı rəngli inqilablar vasitəsilə milli iradədən kənar dövlətə çevirməyi hədəfləyən fəaliyyətlərinə aid çoxlu sayda misallar sadalamaq mümkündür. Milli dövlətlərə qarşı yönələn "rəngli inqilab" ssenarilərindən bəhs edərkən Gürcüstanın kədərli nümunəsi göz önünə gəlir. Sabiq prezident M.Saakaşvili məhz Qərbdən güclü dəstək alan siyasi fiqur kimi Gürcüstan hakimiyyətinə gəlməyə müvəffəq oldu və o, ölkəsinin inteqrasiya siyasətini Qərbə yönəltdi. Onun hakimiyyəti illərində münasibətlərin gərginləşməsi hətta Gürcüstanın Rusiya ilə qısamüddətli müharibəyə qoşulmasınadək uzandı. Ən kədərli nəticə isə ondan ibarət oldu ki, ölkə ərazisinin bir hissəsini itirdi.

Aradan illər ötsə də, USAID, NED, Soros Fondu kimi təşkilatlar yenə də Gürcüstanda məkrli planlarını reallaşdırmaqdan vaz keçməyiblər. Gürcüstanın qeyri-hökumət təşkilatları 2024-cü ildə ölkədə parlament seçkiləri ərəfəsində ABŞ-ın Tramp tərəfindən ifşa olunan USAID təşkilatından 41 milyon dollardan çox vəsait alıblar. Havayı pendir ancaq tələdə olur. USAID də Gürcüstanda ötən il seçkilər ərəfəsində pulları məhz sabitliyin pozulması, qanuni hakimiyyətə müqavimət göstərilməsi ssenarilərində yer alan QHT-lərə yönəldib. Təşkilatın maliyyələşdirdiyi "Beynəlxalq Ədalətli Seçkilər və Demokratik Cəmiyyət"in (ISFED) pozucu fəaliyyəti buna ən bariz nümunədir.

Xatırladaq ki, indiyədək 100-dən çox ölkədə fəaliyyət göstərən USAID 50 milyard dollardan çox büdcəyə malik olub. Qurum dünyada, o cümlədən də post-sovet məkanında müstəqil xarici siyasət yürüdən dövlətlərin daxili işlərinə qarışması, inqilablara sponsorluq etməsi ilə tanınır. Yaxşı haldır ki, dünya ictimaiyyətinə "beynəlxalq təşkilat" adı altında sırınan qurum elə öz vətənində ABŞ-ın yeni administrasiyası tərəfindən ifşa olundu. İ.Kobaxidze Tramp administrasiyasının USAID, NED və digər qurumların cinayətkar fəaliyyətlərini tənqid etməsini alqışladığını desə də, Bayden dövründə planlaşdırılmış inqilab cəhdlərinin qarşısını alan Gürcüstan rəsmilərinə qarşı tətbiq olunan sanksiyaların hələ də qüvvədə qalmasını sərt şəkildə tənqid edib.




Baş nazirin məktubunda ABŞ Konqresinin Nümayəndələr Palatasının qəbul etdiyi və Gürcüstan xalqına qarşı "düşmən mövqeyi" kimi qiymətləndirilən "Dostluq Aktı" da tənqid olunur. İ.Kobaxidze bu sənədi Corc Oruellin "düşmən dostdur" modeli ilə müqayisə edib və bildirib ki, bu akt ABŞ-ın Gürcüstana münasibətinə inamı daha da zəiflədir.

ABŞ Konqresinin Nümayəndələr Palatası bəhs olunan sənədi "Cavabdehlik, Dözümlülük və Müstəqillik İnşası üçün Gürcüstanın Seçimlərinin Səfərbər edilməsi və Artırılması Aktı" adı ilə təqdim edib. Qanun layihəsini 168 respublikaçı və 181 demokrat olmaqla 349 konqresmen dəstəkləyib, 42 nəfər əleyhinə səs verib, 42 nəfər isə bitərəf qalıb.

Sənəddə ABŞ-Gürcüstan əlaqələrinin, o cümlədən bütün yardım proqramlarının tam şəkildə yenidən nəzərdən keçirilməsi, gürcü xalqının Avro-Atlantik inteqrasiyasına dəstək verilməsi, həmçinin ABŞ Prezidentinə Gürcüstanı bu istiqamətdən uzaqlaşdırmağa çalışan "Gürcü Arzusu" partiyasının rəsmilərinə və onların dəstəkçilərinə qarşı sanksiya tətbiq etməsi üçün çağırışlar əks olunub. Qanun layihəsinin qüvvəyə minməsi üçün növbəti mərhələdə ABŞ Senatı tərəfindən təsdiqlənməsi tələb olunur.

## Oxşar qanuna fərqli yanaşma

Gürcüstanla Qərb bloku, o cümlədən də ABŞ-ın keçmiş administrasiyası arasında münasibətlərin gərginləşməsi ötən il qonşu ölkədə iki mühüm qanunun qəbul olunması fonunda bütün cəhətləri ilə özünü büruzə verdi. Həmin qanunlardan biri "Xarici təsirin şəffaflığı haqqında" qanundur. Gürcüstan hakimiyyəti bu qanunun qəbul olunmasını ölkənin milli maraqlarının qorunması zərurəti ilə əlaqələndirir. Qanunda xaricdən maliyyələşən müvafiq təsisatlara nəzarət mexanizmi nəzərdə tutulur. Qərb blokunun başında dayanan Bayden administarsiyası isə bunu rəsmi Tbilisinin demokratiyadan uzaqlaşması anlamında təqdim edirdi.

Qərb dairələri həmçinin Gürcüstan parlamentinin ötən il sentyabr ayının 17-də qəbul etdiyi "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi" adlı qanuna münasibətdə də eyni kontekstdən çıxış edirlər. Onlar hesab edirlər ki, bu qanun "mətbuat və ifadə azadlığına ziddir". Bəhs olunan reallıqlar fonunda Gürcüstanda ötən il parlament və prezident seçkiləri ciddi ajiotajla müşayiət olundu. Qərb təsisatlarına maliyyə bağlılığı olan vətəndaş cəmiyyəti institutları, müxalifət partiyaları, hakimiyyətin müəyyən qolları seçkiləri pozmağa çoxsaylı cəhdlər göstərdilər.

Baş nazir ABŞ administrasiyasının Gürcüstanla strateji tərəfdaşlığı yenidən quracağına ümid etdiyini vurğulayıb. O, Tramp rəhbərliyini "dərin dövlət"ə qarşı mübarizədə səmimi olmağa çağıraraq bu prosesin Gürcüstan-Amerika münasibətlərində dönüş nöqtəsi ola biləcəyini bildirib. Gürcüstanın qəbul etdiyi müvafiq qanunlar Ağ Evdə niyə bu qədər kəskin qarşılanmalıdır? Təəccüb doğuran odur ki, oxşar qanunlar ABŞ-ın özündə də qüvvədədir və həmin qanunlara etiraz etmək heç kimi yadına düşmür. Son sözü demək növbəsi Senatda və Trampdadır. Onlar Bayden administrasiyasının Gürcüstana münasibətdə səhvlərini təkrarlayacaqlarmı?

***Mübariz FEYİZLİ***

# “Qara-qırmızı” koalisiya Almaniyanı “işığa” çıxaracaqmı?

**Mayın 6-da Bundestaqda ikinci cəhdlə də olsa, nəhayət, Xristian Demokratlar Partiyasının lideri Fridrix Mertz Almaniyanın yeni kansleri seçildi. Seçkilərdən bir neçə saat sonra kansler kimi and içən Mertzin komandası iki siyasi qüvvədən - Xristian Demokrat bloku və Sosial Demokrat Partiyasının nümayəndələrindən formalaşıb. Amma ilk günlərdəncə müşahidə olunan odur ki, koalisiyanın işi “düz” getmir. Başqa sözlə, tərəfdaşlar arasında birlik yoxdur. Birinci cəhd səsvermədə lazımi səslərin toplanmaması da bunu təsdiqləyir...**

## Mertz ən böyük rəqibi Merkelin kölgəsindən çıxmaq istəyir

### Radikal meyllər niyə və necə artır...

Bir sıra siyasi ekspertlər bu qənaətdədir ki, Almaniya çox qısa zamanda siyasi böhranla üz-üzə qalacaq. Hazırda “müttəfiqlər” üçün ən mühüm siyasi təhdid son seçkilərdə sürpriz şəkildə 21 faiz səs toplayan və reytinqlərində yüksəlişini davam etdirən ifrat sağçı Almaniya üçün Alternativ (AfD) Partiyasıdır. AfD-nin populyarlığının artması isə ölkədəki təhlükəsizlik mühitinə də təsir göstərir:

- 2024-cü ilin dekabrında Maqdeburqda Yeni il yarmarkasına edilən avtomobil hücumu - ;

- 2025-ci il martın 3-də saat 12 radələrində Baden-Vürtemberq ştatının Mannheim şəhərinin mərkəzində yarmarkaya gələn izdihama avtomobil hücumu - Yerli hakimiyyət orqanlarının məlumatına görə, iki nəfər, “Bild”in məlumatına görə 25 nəfər ölüb;

- Zolingen və Aşaffenburqda bıçaqlı hücumlar;

- hələ də davam edən iqtisadi geriləmə...

Belə bir şəraitdə “qaralar” və “qırmızılar”ın kifayət qədər kövrək koalisiyası daxilində istənilən münaqişə Mertz hökuməti üçün problem yarada və Almaniya yeni seçkilərə gedə bilər.

Xristian Demokrat İttifaqı (CDU), Xristian Sosial Birlik (CSU) və sol mərkəzçi Almaniya Sosial Demokrat Partiyası (SPD) tərəfindən imzalanan 140 səhifəlik koalisiya sazişinin detalları bağlı qapılar arxasında müzakirə edildiyi üçün geniş auditoriyaya çıxarılmır. Amma bir məsələ artıq bəllidir ki, fevral seçkilərində 16 faiz səs qazanan SPD-nin dəstəyi iqtidar partiyasına hökumət qurmağa bəs edib. Beləliklə, Almaniya Angela Merkel və sözdə “qara-qırmızı” koalisiya dövrünə qayıtdı.

Alman standartlarına uyğun olaraq koalisiya ya-

### Koalisiya uğrunda şərtlər...

radılsa da, deyildiyi kimi mühafizəkarlar və sosial demokratlar arasında daxili siyasətin ən fundamental məsələlərində kifayət qədər fikir ayrılığı var. Məsələn, tərəflər vergilərlə bağlı razılığa gələ bilmirlər. Mertz sosialistlərin miras və sərvət vergilərinin artırılması təklifinə cavab olaraq, “Vergiləri artırmaq niyyətli heç bir koalisiya olmayacaq” deyib. Nəticədə tərəflər vergiləri tədricən nizamlayacaqlar. Büdcə xərcləri də azaldılacaq, könüllü hərbi xidmətin tətbiqi barədə də razılıq əldə olunub. Bunun qarşılığında isə SPD əvvəlki hökumətin bəzi təşəbbüslərini müdafiə edə bildi: sürətləndirilmiş vətəndaşlıq hələ də əldə edilə bilər - fərq odur ki, bu, üç ildən sonra deyil, beş ildən sonra baş verir. Bəzi yüngül narkotik vasitələrin qismən leqallaşdırılması və universal səyahət bileti (Deutschlandticket) qüvvədə qalacaq - baxmayaraq ki, qiymətlər artacaq.

Seçki kampaniyası zamanı Mertz miqrasiya siyasətini sərtləşdirməkdə qərarlı idi: o, sərhədləri bağlayacağını və ukraynalı qaçqınlara müavinətlərin (Bürgergeld) ödənilməsini dayandıracağını vəd etmişdi. Bu məsələdə sosial demokratlar “təslim olmaq” məcburiyyətində qalıb - qarşılığında isə SPD eyni anda yeddi nazir portfelini alıb. Hətta bir nüans da var: Maliyyə Nazirliyi və Müdafiə Nazirliyi kimi strateji nazir portfelləri də Sosial Demokratlara təhvil verilir - onların bu qədər nazirlə təmsilçiliyi SDP-nin ölkədə üçüncü deyil, ikinci partiya olduğu sonuncu Merkel hökuməti dövründə (2017-2021) baş vermişdi. Bu isə həm də partiyanın hazırkı həmsədri Lars Klinqbaylla bağlıdır. O bildirir ki, partiyası sadəcə Mertzin gündəmini izləmək istəmir, öz prioritetlərini də təyin etməyə çalışır.




### Yeni kabinetdə kimlər var?

Siyasi ekspertlər Almaniyanın “dirçəliş” dövrünə qədəm qoymaq üçün mübarizə apardığını bildirirlər. Almanların Avropa kontingnentində sonuncu “qüdrətli” dövrü Merkellə bitib. Bu adı xatırlatmaqda məqsədimiz var - maraqlıdır ki, Mertz kabinetin yekun tərkibində əsas meyar kimi sədaqəti qiymətləndirdiyini ortaya qoyub. Bu siyahıda Mertzin partiya daxilindəki əbədi rəqibi Angela Merkelə yaxın olan insanlar demək olar ki, yoxdur. Yeni nazirləri ya kanslerin özü, ya da Bavariya Xristian Sosial Birliyinin (CSU) rəhbəri Markus Şöder idarə edəcək.

Əsas simalara gəldikdə isə, xarici işlər naziri Şimali Almaniyadan olan Yohan Vadefuldur - Ukraynanın sadiq tərəfdarı... Əvvəlki “qırmızı-qara” koalisiyalardan fərqli olaraq bu dəfə adıçəkilən post Sosial Demokratlara verilmədi.

Rəqəmsallaşma Nazirliyinə rəhbərlik edəcək Karster Vilderberq Almaniyanın əsas elektronika mağazaları olan Media-Markt və Saturn-un daxil olduğu “Ceconomy” konserninin top meneceri və baş direktorudur. O, həmçinin İT sənayesinə yaxındır.

Xristian Sosial İttifaqından olan bavariyalılar da kabinetdə yer alır - daxili işlər naziri sərt miqrasiya siyasətinin tərəfdarı, xüsusən də işsiz ukraynalı qaçqınların deportasiyasını təklif edən Aleksandr Dobrindtdir.

Brandenburqdan olan Katerina Reyçi iqtisadiyyat naziri olacaq. Reyçi Şərqi Almaniyadan olan mühafizəkar protestantdır. SPD lideri Lars Klinqbayl maliyyə naziri və vitse-kansler oldu - müdafiə naziri postunu isə, əvvəlki hökumətdə olduğu kimi, hazırda Almaniyanın ən populyar siyasətçisi sayılan Boris Pistorius tutacaq.

### İnam azdır...

Seçkilərdən sonra kabinetin ilk “işi” “Bundesveri”n gücünü artırmaq üçün 500 milyard avroluq rekord kredit götürülməsi oldu. Pistorius bu fondu idarə edəcək və gələcək illər üçün ölkənin müdafiə siyasətini müəyyənləşdirəcək.

İqtisadi Əməkdaşlıq Nazirliyinə 1990-cı illərdə valideynləri İraqdan miqrasiya etmiş 35 yaşlı Reem Alabali-Radovan rəhbərlik edəcək. Nazir Şolts hökumətində inteqrasiya üzrə komissar idi. Alabali-Radovan hökumətin ən gənc üzvüdür, cəmi 35 yaşı var, lakin o, artıq tənqid hədəfinə çevrilib.

Bu komandanın Merkel dövrünə qayıdışı reallaşdırmasına inam azdır. Mertz tərəfindən yığılmış komanda həqiqətən də olduqca qeyri-bərabər və potensial ziddiyyətlərlə dolu görünür - baxmayaraq ki, yeni hökumət Olaf Şoltsun rəhbərlik etdiyi əvvəlki kabinetdən fərqli olaraq üç deyil, iki siyasi qüvvədən ibarətdir. Üstəlik, həm CDU/CSU, həm də SPD siyasi mərkəzə meyl edən partiyalardır. Amma kansler seçkiləri göstərdi ki, Mertz “zərbəni” harada gözlədiyini bilmir - müttəfiqlərindən, yoxsa öz partiya yoldaşlarından.

### 3 dövrün müqayisəsi...

Siyasi oturuşmalarla yanaşı, iqtisadi parametrlərdə də uyğunsuzluqlar mövcuddur. Məsələyə müqayisəli prizmadan baxaq:

- Angela Merkel öncəsi dövrdə (1998-2005) Ümumdaxili Məhsul (ÜDM) 2 trilyon avro ətrafında idi. İqtisadi artım zəif, işsizlik yüksək idi (10 faizə yaxın). Almaniya qlobal iqtisadiyyatda yerini qoruyurdu - Merkel dövründə isə (2005-2021) bu rəqəm əhəmiyyətli dərəcədə artdı. 2019-cu ildə ÜDM 3,4 trilyon avroya çatdı. İqtisadiyyat gücləndi, işsizlik azaldı (3-5 faiz). Merkel 2008 böhranı və COVID-19 kimi çətinlikləri nisbətən sabitliklə idarə etdi. Merkel sonrası dövrdə (2021-ci ildən sonra), yəni Şolts dövründə inflyasiya və enerji böhranı səbəbindən ÜDM artımı yavaşıdı. 2022-23-cü illərdə iqtisadi durğunluq əlamətləri müşahidə edildi.

Eyni fikirləri ölkənin Aİ daxilindəki nüfuzuna da şamil etmək olar. Belə ki:

- Merkel öncəsi Almaniya Aİ-nin əsas iqtisadi gücü idi - lakin Fransa ilə birlikdə liderlik paylaşırdı. Merkel dövründə bu məsələdə “təkhakimiyyətlik” formalaşdı. Merkel Aİ-nin faktiki lideri kimi çıxış etdi. Yunanıstan böhranı, miqrasiya böhranı və COVID pandemiyası zamanı Merkelin qərarları Aİ-nin fəaliyyət istiqamətini müəyyənləşdirdi. Merkel sonrası dövrdə, yəni son 4 ildə isə Almaniyanın Aİ-dəki liderliyi daha zəif hiss olunur. Fransa və İtaliya müəyyən təşəbbüslərlə önə çıxmaq istəyir və beləliklə də Almaniyanın sabit lider rolu zəifləyir.

Ölkə daxilindəki iqtisadi mühit də “açıq deformasiya” ya uğramış kimi görünür:

- Merkel öncəsi işsizlik yüksək, iqtisadi islahatlar gecikmişdi. Almaniya Avrozonada “xəstə adam” ləqəbi ilə xarakterizə edilirdi. Merkel dövründə sərt fiskal siyasət yürüdüldü, “Schwarze Null” (sıfır borc) siyasəti ilə maliyyə intizamı qorundu. Almaniya Avropanın iqtisadi lokomotivinə çevrildi. Merkel sonrası dövrdə isə enerji qiymətləri artıb, Rusiya ilə ticarət əlaqələrinin zəifləməsi və inflyasiya səbəbindən iqtisadi sabitlik sarsılıb. “Made in Germany” brendi təzyiqlərlə üzləşir.

Almaniya üçün ən əsas göstəricilərdən biri də miqrasiya və demoqrafiyadır:

- Merkel öncəsi miqrasiya siyasəti sərt idi, əsasən əmək bazarına lazım olan miqrantlar qəbul edilirdi. Əhali yaşlanır, lakin bu hələ kəskin problem kimi qəbul edilmirdi. Merkel dövründə - 2015-ci ildə miqrasiya böhranı baş verdi və ölkəyə 1 milyondan çox qaçqın qəbul edildi. Bu isə cəmiyyətin bir hissəsinin barışmayaraq radikal sağa meyl etməsi ilə nəticələndi - AfD-nin yüksəlişi o illərə təsadüfi edir. Şolts hökuməti də miqrasiya axınlarını tənzimləməyə çalışırdı, lakin miqrantların cəmiyyətə inteqrasiyası hələ də əsas problem kimi qalmaqdadır.



Bu sıraya təhlükəsizlik və müdafiə sahəsini də əlavə etsək:

- Merkel öncəsi Almaniya əsasən passiv və qeyri-intervensiv müdafiə siyasəti yürüdürdü. NATO-nun əsas üzvü olsa da, hərbi xərclər aşağı idi. Merkel dövründə də müdafiə xərcləri NATO-nun tələb etdiyi 2 faiz həddinə çatmırdı - bu, xüsusilə ABŞ tərəfindən kəskin tənqid olunurdu. Merkel sonrasında isə Rusiya-Ukrayna müharibəsi fonunda Almaniya 100 milyard avro həcmində yeni müdafiə fondu yaratdı. Hərbi sənayenin yenilənməsi və müdafiə siyasətində daha aktiv mövqe qəbul edildi - bu, Merkel dövründən əsas fərq idi.

### Mertzdən gözləntilər...

Beləliklə, aydın olur ki, Almaniya Merkel dönəmində qazandığı beynəlxalq nüfuzu, siyasi sabitliyi və iqtisadi gücü ilə Avropanın lokomotivi rolunu oynamışdı. İndi isə yeni hökumətin qarşısında duran əsas vəzifə ötən 4 il ərzində müəyyən ştrixlərlə zəifləyən “bu irsi” çağdaş qlobal çağırışlara uyğun şəkildə yenidən inşa etməkdir. Bu kimi proqramlar isə daxili sabitliyin bərpası, enerji və miqrasiya böhranlarına cavablar, eyni zamanda Aİ daxilində liderlik missiyasını davam etdirmək, Almaniyanın beynəlxalq mövqeyini bərpa etmək baxımından həlledici olacaq. Qərarlılıq, islahat əzmi və strateji baxış olarsa, Almaniya bir daha Merkel dönəmindəki qüdrətinə və nüfuzuna qayıda bilər. Bu isə təkcə Almaniya üçün deyil, bütövlükdə Avropa üçün də sabitlik və inkişaf demək olacaq...

*Pərviz SADAYOĞLU*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# Cəmiyyətin özəyi...

## Beynəlxalq Ailə Günüdür

Bütün cəmiyyətlərdə ailə mövzusu daim aktual problemlərdən biri hesab olunur. Məlumdur ki, ailə kiçik ictimai təşkilatdır və ailənin qurulması ictrimai-tarixi hadisədir. Çünki ailə cəmiyyətin formalaşmasını və onun başlıca özəyini təşkil edir. Ailə münasibətləri cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlərlə şərtlənir.

Etiraf edək ki, cəmiyyətdə hansısa dəyişikliklər baş verərsə, bu, ilk növbədə ailələrə təsir göstərir. Bir sözlə, kiçik sosial qrup olmasına baxmayaraq, ailə və onun qorunması məsələsi zaman-zaman aktuallaşır.

## Ailədaxili problemlərdə iqtisadi amillər...

Etiraf edək ki, günümüzdə ailə quran cütlüklərin yaşadığı problemlər arasında iqtisadi faktorlar mühüm rola malikdir. Münasibətlərə xələl gətirən iqtisadi amillərə-işsizlik, həyat səviyyəsinin aşağı olması və yoxsulluğu qeyd edə bilərik.

## Avropa dəyərlərinin cəmiyyətimizə təsiri...

Bəzən sosial şəbəkədə bir qrup şəxs Azərbaycanda ailə institutunun yararsız olması ilə bağlı təbliğat aparır. Onlar bildirirlər ki, həm ailə, həm də milli-mənəvi dəyərlər cəmiyyətin inkişafına ayaq bağı olur, bundan qurtulmaq lazımdır. Onların iddialarına görə, ailə institutu köhnəlmiş bir ənənədir. Bu xəttin tərəfdarları özlərini müxtəlif cinahların, hərəkatların nümayəndəsi kimi təqdim edirlər. Bir qrup bildirir ki, feministdirlər, digər bir qrupu özlərini liberal adlandırır. Həmin şəxslər Avropa ölkələrindəki ailələri misal gətirirlər. Lakin anlamırlar ki, Avropanın bütün dəyərlərini olduğu kimi öz cəmiyyətimizə gətirə bilmərik. Bu, tərəflər arasındakı problemlərə, ailələrin dağılmasına yol aça bilər.

## Gender bərabərliyi...

Çox vaxt ailədaxili münasibətlərin korlanmasında gender bərabərliyinin qorunması vacib rol oynayır. Lakin əksər hallarda gender bərabərliyi ilə bağlı yanlış təbliğat aparılır. Bu da gender bərabərliyindən danışarkən yalnız qadın hüquqlarının pozulması barədə informasiyalardır. Ancaq unutmamalıyıq ki, gender bərabərliyi, eyni zamanda, kişi hüquqlarının pozulması deməkdir. Düzdür, qadınların iqtisadi cəhətdən gücləndirilməsi ailə münasibətlərinə təsir edir. Ailə büdcəsinə öz töhfələrini verməklə bərabər, qadınların özünə inamı artır, ailədə iqtisadi cəhətdən asılı olmurlar. Lakin təəssüflər olsun ki, ölkəmizdə gender bərabərliyi adı altında yanlış təbliğat aparılır. Ailədə qadınlar kimi kişilər də kifayət qədər fəallıq nümayiş etdirirlər. Amma bəzi hallarda qadınların kişiləri istismar etməsinin də şahidi oluruq. Məsələn, gününü alış-verişlərdə, gözəllik salonlarında keçirməyi sevən qadınlar heç bir yerdə işləmədikləri halda kişidən maddi tələbatını ödəməyini israr edir. Bunu isə kişilərin bir növ istismarı adlandırmaq olar.

## Sosial şəbəkələr ailələri necə məhv edir?

Aparılan araşdırmalara görə, son illər bütün ölkələrdə sosial şəbəkələrdən düzgün istifadə etməmək ailə münasibətlərinə mənfi təsir edir. Dünyada qeydə alınan boşanmalarda Vatsap yüzdə 40 nisbətində rol oynayır. İkinci yerdə Feysbuk, üçüncü yerdə isə digər sosial şəbəkələr gəlir. Yeniyetmələrin, evli qadınların evdən qaçması artıq “dəb” halına çevrilib. Bu kimi hadisələrin kökündə dayanan səbəblər araşdırılanda isə məlum olur ki, ailədən qəfil uzaqlaşma sosial şəbəkədə baş tutan hansısa tanışlıqla bağlıdır. Bu baxımdan sosial şəbəkələrin ailə münasibətlərinə mənfi təsiri, boşanmalara yol açması danılmazdır.

Yeri gəlmişkən, bu gün Beynəlxalq Ailə Günü kimi qeyd olunur. Bu gün BMT Baş Assambleyası tərəfindən 1993-cü ildə qəbul edilib. BMT-nin Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq 1994-cü ildən bu gün qeyd olunur. Azərbaycan 2008-ci ildən bu ənənəyə qoşulub. Respublikamızda Ailə bayramının qeyd olunması dövlət qadın siyasətinin əyani təcəssümüdür. Ailə gününün qeyd olunmasında məqsəd isə planetimizdə yaşayan bütün insanların diqqətini bir daha ailə problemlərinin həllinə yönəltmək məqsədi daşıyır.

***Yeganə BAYRAMOVA***

# Sağlam mühit üçün...

## Beynəlxalq İqlim Günüdür

Bu gün bəşəriyyətin üzləşdiyi qlobal problemlərdən biri iqlim dəyişikliyidir. Qlobal istiləşmə, təbii fəlakətlər, planetdə dəyişən hava şəraiti - bütün bunlar Yer kürəsinin iqliminin pisləşməsinə gətirib çıxarır. Nəticədə insanların qida və həyat təhlükəsizliyi, təbii ehtiyatların vəziyyəti və dövlətlərin tarazlı inkişafına mənfi təsir göstərir.

Mayın 15-də bütün dünya Beynəlxalq İqlim Gününü qeyd edir. Bu günün təsis edilməsində əsas məqsəd dünyanın dayanıqlı inkişafı üçün iqlim dəyişmələri ilə mübarizəyə beynəlxalq ictimaiyyətin cəlb edilməsindən ibarətdir.

## Orta temperatur 0,8 dərəcə artıb

Təkcə son 35 ildə planetdə iqlim dəyişikliyi kəskin surətdə sürətlənib. Demək olar ki, hər il yeni temperatur rekordları müəyyən edilir. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin (IPCC) Ekspertlər Qrupunun qiymətləndirmə hesablarına görə, son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. Temperaturun artması əsasən antropogen amillərlə bağlıdır.

## Heç bir tədbir görülməzsə...

İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin hesablamalarına görə, istixana qazlarının emissiyalarının azaldılması ilə bağlı heç bir tədbir görülməzsə, XXI əsrdə dünyanın orta illik temperaturu ən azı 3-4 dərəcə yüksələ bilər.



## Mühüm saziş

Planetdə geridönməz iqlim dəyişikliyinə səbəb olan əsas problemlər sırasında atmosferdə istixana qazlarının konsentrasiyasının artmasıdır. İlk dəfə həmin fenomen dünya səviyyəsində 1992-ci ildə - Rio-de-Janeyroda keçirilən BMT-nin ətraf mühit və inkişaf məsələlərinə həsr edilmiş “Yer kürəsi sammiti” konfransında müzakirə edilib. Dünyanın 180-dən çox ölkəsinin, o cümlədən keçmiş SSRİ ölkələri nümunəsində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (FCCC) imzaladılar. Həmin saziş atmosferdə istixana qazlarının Yer kürəsinin iqlim sisteminə olan qlobal antropogen təsirli təhdid etməyən səviyyədə sabitləşdirməyə yönəlmiş dövlətlərin fəaliyyətlərinin ümumi prinsiplərini müəyyən etdi.

## Azərbaycan böyük hədəflər müəyyən edib

Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını, 2000-ci ildə isə konvensiyanın Kioto protokolunu ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulub. Ölkəmiz Paris Sazişini 2016-cı ilin oktyabrında ratifikasiya edib. Paris Sazişi ölkələrin təqdim etdiyi Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrə əsasən öhdəliklərini müəyyən edir.

Azərbaycan Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədində baza ili (1990) ilə müqayisədə 2030-cu ildə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürmüşdü. 2021-ci ilin noyabrında Şotlandiyanın Qlazqo şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 26-cı konfransında Azərbaycan qlobal səylərə öz töhfəsini vermək məqsədilə yeni hədəfli çıxış edərək 2050-ci ilə qədər əlavə könüllü şəkildə iqlim emissiyalarını 40 faizədək azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə “netto sıfır emissiya” zonasının yaradılmasını bəyan edib. Eyni zamanda, ağıllı şəhər/ağıllı kənd konsepsiyasının reallaşması və bu ərazilərdə “Yaşıl Enerji Zonası”nın yaradılması planları haqqında danışılıb.

İstilik effekti yaradan qazların qlobal emissiyalarında ən çox payı olan 5 ölkə bunlardır - Çin (28 faiz), ABŞ (15 faiz), Hindistan (7 faiz), Rusiya (5 faiz), Yaponiya (4 faiz). İstilik effekti yaradan qazların dünya üzrə ümumi emissiyalarında Azərbaycanın payı 0,15 faiz təşkil edir.

İqlimin qorunması hazırda bəşəriyyət qarşısında duran qlobal problemlərdən biridir. Qlobal istiləşmə, atmosfer qatında artan ozonun miqdarı, təbii fəlakətlər, planetin hava şəraitinin dəyişməsi - bunlar hamısı Yer kürəsinin iqliminin pisləşməsinə səbəb olur. Nəticədə insanların ərzaq, həyati və mülki təhlükəsizliyi sual altında qalır, təbii resursların vəziyyətinə və dövlətlərin dayanıqlı inkişafına mənfi təsir göstərir.

Müasir elm Yer kürəsinin temperaturunda daha çox artım olacağı halda faciəli iqlim dəyişikliyinin nə qədər tez bir zamanda baş verəcəyi sualına cavab tapa bilmir. Ancaq ekoloq və meteoroloqların fikrincə, bu dəyişikliyi bəşəriyyətin gücü ilə təxirə salmaq lazımdır.

Yer kürəsinin iqliminin stabil saxlanılması planetin hər bir sakinindən asılıdır. Avtomobildən çox istifadə etməməklə, mənzillərdə işıqlandırma məqsədilə enerjiyə qənaət edən mənbələrdən istifadə ilə, ağac əkinlərinə və yaşıllıqların müdafiəsi aksiyalarına qoşulmaqla iqlimin qorunmasında pay sahibi olmaq olar. Hər kəsə kiçik görünən bu əməllər əslində Yer kürəsi üçün böyük mənam ifadə edir...

***Yeganə BAYRAMOVA***

# Azercell-in dəstəyi ilə fəaliyyət göstərən “Uşaq Qaynar Xətti”nə 2025-ci ilin birinci rübündə 940 müraciət daxil olub




2025-ci ilin yanvar-mart aylarında “Azərbaycan Uşaq Qaynar Xətt” (AUQX) xidmətinə ümumilikdə 940 müraciət qeydə alınıb. Bu zənglərin 163-ü psixoloji problemlər, 147-si hüquqi yardım, 94-ü sosial məsələlər, 48-i təhsil, 17-si səhiyyə hüququ ilə bağlı olub. Zənglərin 471-i ümumi xarakterli suallar, xidmət haqqında məlumat sorğuları və digər müxtəlif mövzuları əhatə edib.

Statistik göstəricilərə əsasən müraciətlərin 48%-i qadın, 27%-i kişi, 25%-i isə anonim şəkildə edilib. Zənglərin yaş təsnifatına əsasən, onların 547-si 18 yaşdan yuxarı şəxslərdən, 175-i isə 18 yaşdan aşağı uşaqlardan gəlib, qalan müraciətlər anonim olub.

AUQX-in əsas məqsədi çətin vəziyyətə düşmüş uşaqlara sosial, psixoloji və hüquqi dəstək göstərmək, müraciətləri müvafiq qurumlara yönləndirmək və zəruri hallarda təxirəsalınmaz yardım təmin etməkdir. 2025-ci ilin ilk rübündə edilən müraciətlər əsasında mərkəzə 28 ailə dəvət olunub, uşaqlarla 89 sosial-psixoloji reabilitasiya işi həyata keçirilib. Ailələrə ehtiyaclarına uyğun olaraq hüquqi, psixoloji və psixososial dəstək göstərilib, 19 məktəb və ailəyə isə yerində səfərlər təşkil olunub.

Xidmət “Azercell Telekom” MMC, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə “Ümidli Gələcək” Sosial Təşəbbüslər İctimai Birliyi tərəfindən həyata keçirilir.

AUQX 18 yaşına çatmamış uşaqları və onların problemi ilə bağlı müraciət edən hər kəsi əhatə edir. 116111 qısa nömrəsi, mobil nömrələr, elektron poçt, sosial media platformaları və mobil tətbiq vasitəsilə xidmətlə əlaqə saxlamaq mümkündür. Xidmətin əsas prinsipi - məxfilikdir. Məlumatlar yalnız ehtiyac olduqda müraciətçinin razılığı ilə aidiyyəti qurumlara təqdim olunur.

Qeyd edək ki, 2010-cu ildən 2025-ci ilin mart ayınadək Azərbaycan “Uşaq Qaynar Xətt Xidməti”nə ümumilikdə 76,000-dən çox müraciət daxil olub.

“Azercell Telekom” MMC və şirkətin fəaliyyəti haqqında daha ətraflı məlumat əldə etmək üçün rəsmi Azercell səhifəsinə keçid edin.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4952**
**Sifariş: 1002**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova